RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 102 (8981) ÇƏRŞƏNBƏ AXŞAMI, 17 may 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## Regionun inkişaf təminatçıları

### İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın təşəbbüsləri Avrasiyanın təhlükəsizliyinə və rifahına mühüm töhfə verir



→ 5

## İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Bakıdakı səfirliyində olub

### Prezident matəm kitabına ürək sözlərini yazıb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) ölkəmizdəki səfirliyində olub, görkəmli dövlət xadimi, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Xəlifə bin Zayed Al Nəhyanın vəfatı ilə əlaqədar başsağlığı verib.

AZƏRTAC xəbər verir ki, Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycan Respublikasındakı səfiri Məhəmməd Əl Bluşi dövlətimizin başçısını qarşıladı.

Prezident İlham Əliyev matəm kitabına ürək sözlərini yazdı.

→ 2

## Baş nazir Əli Əsədov Birləşmiş Ərəb Əmirliklərinə səfər edib



Əbu-Dabi Beynəlxalq Hava Limanında Baş naziri BƏƏ-nin energetika və infrastruktur naziri Suhail Al Mazrouei qarşıladı. Suhail Al Mazrouei ilə qısa görüş əsnasında Baş nazir Əli Əsədov görkəmli dövlət xadimi, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Xəlifə bin Zayed Al Nəhyanın vəfatı ilə əlaqədar başsağlığı verdi.

→ 3

## Azərbaycanla Özbəkistan arasında qardaşlıq münasibətləri bütün istiqamətlərdə özünü göstərir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Özbəkistan Respublikası Ali Məclisinin Qanunvericilik Palatasının Sədri Nurdinjon İsmoilovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

→ 3

## Prezident Təhsil Nazirliyinə 5 milyon manat vəsait ayırıb



İlham Əliyev Azərbaycan Respublikasının ərazisində modul tipli təhsil müəssisələrinin quraşdırılması işlərinin davam etdirilməsi haqqında sərəncam imzalayıb.

→ 2

## Azərbaycanla Türkiyənin uğurları ölkələrimizin beynəlxalq miqyasda nüfuzunun daha da artmasına xidmət edir



→ 4

## Qədim Füzulinin yeni günləri başlayır

### Görülən işlər işğaldan azad olmuş rayona təzə həyat bəxş edəcək

Qarabağın və Şərqi Zəngəzurun hər tərəfində olduğu kimi, Füzuli rayonunda da geniş quruculuq işləri gedir. Füzuli şəhəri, ümumiyyətlə, 50 min sakin üçün planlaşdırılır. Yəni 2040-cı ilə o, 50 min nəfərlik bir şəhər olacaq. Füzulinin perspektivli sabahının təməli isə bu gün qoyulur.

Prezident İlham Əliyevin bölgəyə hər səfəri zamanı burada yeni layihələrə start verilir, yaxud yeni obyektlərin açılışı olur. Füzuli Beynəlxalq Hava Limanı artıq istifadəyə verilib və regionun inkişafına xidmət edir. Rayonun Dövlətyarlı kəndində isə "ağıllı kənd" layihəsi həyata keçirilir. Plana görə, şəhərin mərkəzi hissəsində memorial kompleks yaradılacaq. Burada eləcə də İşğal muzeyi və Zəfər parkı salınacaq. Yüksək bir məkan Bayraq meydanı üçün ayrılacaq. Çoxmənzilli binalar inşa ediləcək. Daha sonra həyətyanı bağ sahələri olan fərdi evlər tikiləcək. Şimal hissədən nəqliyyat dəhlizi, avtomobil və dəmir yolları çəkiləcək. Bir sözlə, görüləcək işlər çoxdur və onlar mərhələlərlə gerçəkləşir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva cari il mayın 10-da bu rayonda səfərdə olarkən yeni sosial obyektlərin, infrastrukturun tikintisinə xeyir-dua veriblər.

→ 8

## "Qardaşlıq körpüsü"

### İlham Əliyevin Rizəyə səfəri Türkiyə mediasının əsas manşet mövzusu oldu

Azərbaycan ilə Türkiyə dostluq və qardaşlıq münasibətlərinə söykənərək bölgədə və dünyada gedən proseslərə həmişə eyni mövqe sərgiləyib, ortaq maraqlardan çıxış ediblər. İstər İlham Əliyevin, istərsə də Rəcəb Tayyib Ərdoğanın qarşılıqlı əlaqələrin inkişafına verdiyi diqqət və önəm şübhəsiz ki, möhkəm özüllər üzərində qurulan münasibətləri daha da qüdrətləndirir.

Mayın 14-də İlham Əliyevin Türkiyədə Rizə-Artvin Hava Limanının açılış mərasimində iştirak etməsi qardaş ölkənin bir neçə yüz minlik tirajlı qəzetlərinin əsas manşet mövzusuna çevrilib. Baxış sayı milyona çatan internet portalları, sosial şəbəkədəki səhifələr hər iki dövlət başçısının çıxışlarını anbaan yeniləyərək oxuculara çatdırıblar. Teleşirkətlər isə həmin hadisəni canlı yayımlar vasitəsilə izləyicilərə göstəriblər. Onlardan bəzilərini oxucuların diqqətinə çatdırırıq.

"Milliyət" qəzeti "Qardaşlıq körpüsü" adlı xəbəri manşetdən verib. Yazıda bildirilib ki, bu qardaşlıq siyasi, iqtisadi, ticarət, elm, təhsil, mədəniyyət və digər sahələr üzrə ikitərəfli əməkdaşlığın çevik inkişafı ilə yanaşı, Azərbaycan və Türkiyəyə yeni-yeni uğurlar vəd edir.

→ 6

## Avropanın siyasiləşən "Avroviziya"sı

### Bundan sonra qalmaqallı yarışmada iştiraka ehtiyac varmı?

İctimai Televiziya və Radio Yayımları Şirkətindən verilən məlumata görə, müsabiqə təşkilatçılarına azərbaycanlı münsiflərin səs verdiyi ölkələrin adları göndərilib. Həmin siyahıya əsasən, 12 bal Ukraynaya verilib. Yarışma təşkilatçıları buna cavab olaraq İctimai Televiziya və Radio Yayımları Şirkətinin nümayəndələrindən final şousunun sonunda heç bir səbəb gətirmədən israrla başqa nəticələrin açıqlanmasını istəyiblər. Azərbaycan tərəfindən isə bu istək qətiyyətlə rədd edilib.

Dərhal təşkilatçılara sorğu xarakterli rəsmi məktub göndərilib və canlı yayımda onlardan alınan nəticələrin deyil, Azərbaycanın münsif heyətinin verdiyi səslərin açıqlanacağı, bu məsələnin isə ictimailəşdiriləcəyi bildirilib. Yalnız bundan sonra yarımfinal mərhələsi zamanı 6 ölkənin, o cümlədən Azərbaycanın səsləri ilə bağlı müəyyən "qəribəliyin" olduğu barədə məlumat verilib. Bu "qəribəlik"lə bağlı isə finalın sonuna qədər heç bir məlumat verilməyib, hansısa "sübutlar" indiyə qədər təqdim olunmayıb. Azərbaycan münsiflərin səsverməsinin nəticələrini elan etməyə tam hazır olmasına baxmayaraq, yarış təşkilatçıları Bakıya bağlanmayıb, ölkəmiz adından öz nəticələrini elan ediblər.

→ 11

## "Bakı Marafonu-2022"

## Küləyə qalib gəl




→ 7

# İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Bakıdakı səfirliyində olub

## Prezident matəm kitabına ürək sözlərini yazıb








**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) ölkəmizdəki səfirliyində olub, görkəmli dövlət xadimi, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Xəlifə bin Zayed Al Nəhyanın vəfatı ilə əlaqədar başsağlığı verib.**

AZƏRTAC xəbər verir ki, Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycan Respublikasındakı səfiri Məhəmməd Əl Bluşi dövlətimizin başçısını qarşıladı.

Prezident İlham Əliyev matəm kitabına ürək sözlərini yazdı.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Şeyx Xəlifə bin Zayed Al Nəhyanın vəfatı ilə əlaqədar bir daha başsağlığı verən Prezident İlham Əliyev məhz onun səyləri nəticəsində bu gün BƏƏ-nin sürətli inkişafa nail olduğunu xüsusi vurğuladı. Eyni zamanda, yeni Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın rəhbərliyi ilə də ölkənin bu inkişaf yolunu davam etdirəcəyinə əminliyini ifadə etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla dostluq və qardaşlıq münasibətlərinin əməkdaşlığın daha da genişlənməsi işinə öz töhfəsini verəcəyini bildirdi.

Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycandakı səfiri Məhəmməd Əl Bluşi səfirliyə gələrək Şeyx Xəlifə bin Zayed Al Nəhyanın vəfatı ilə əlaqədar başsağlığı verməsinə görə dövlətimizin başçısına minnətdarlığını ifadə etdi və bunu ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin təzahürü kimi dəyərləndirdi. Səfir əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminliyini bildirdi. Məhəmməd Əl Bluşi münasibətlərimizin inkişafında dövlətimizin başçısı ilə BƏƏ-nin yeni Prezidenti arasındakı şəxsi əlaqələrin xüsusi rolunu qeyd etdi.

## Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 410 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası adından borc alınması və zəmanət verilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 410 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2567; 2020, № 1, maddə 5; 2021, № 11, maddə 1211) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası adından borc alınması və zəmanət verilməsi Qaydası"na aşağıdakı məzmunda 1.2-2-ci bənd əlavə edilsin:

"1.2-2. Müqavilə əsasında idarəetməyə verilən və payları (səhmləri) yüz faiz dövlətə məxsus lotereya təşkilatçısı və (və ya) idman mərc oyunları operatoru olan hüquqi şəxsə bu Qaydanın müddəaları idarəetmə müqaviləsi qüvvədə olduğu müddət ərzində şamil edilmir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 may 2022-ci il*

## "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 mart tarixli 2553 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 mart tarixli 2553 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 3, maddə 258) birinci hissəsinə "iqtisadiyyat nazirinin" sözlərindən sonra "birinci" sözü əlavə olunsun və həmin hissədə "Xidməti rəisinin müavini" sözləri "Xidmətinin rəisi" sözləri ilə, "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə, "Zaur Qurbanov - Azərbaycan İnvestisiya Holdinqinin Baş icraçı direktorunun müavini" sözləri "Günel Cavadova - Azərbaycan İnvestisiya Holdinqinin Hüquqi təminat və dövlət qurumları ilə əlaqələndirmə departamentinin müdiri" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 may 2022-ci il*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 fevral tarixli 2516 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 fevral tarixli 2516 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 181) birinci hissəsində "nəqliyyat, rabitə və yüksək texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə, "rəis müavini" sözləri "rəisi" sözü ilə, "Zaur Qurbanov" sözləri "Xəyyam Məmmədov" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 may 2022-ci il*

## "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 mart tarixli 2555 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 mart tarixli 2555 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 3, maddə 260) birinci hissəsində hər iki halda "nəqliyyat, rabitə və yüksək texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə, "Zaur Qurbanov" sözləri "Anar Novruzov" sözləri ilə əvəz olunsun və həmin hissəyə "iqtisadiyyat nazirinin" sözlərindən sonra "birinci" sözü əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 may 2022-ci il*

## "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 fevral tarixli 2515 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 fevral tarixli 2515 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 180) birinci hissəsi ilə təsdiq edilmiş "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibi aşağıdakı redaksiyada verilsin:

**"Müşahidə Şurasının sədri**

Mətin Eynullayev - Azərbaycan İnvestisiya Holdinqinin İdarə Heyətinin sədri, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi

**Müşahidə Şurasının üzvləri**

Səməd Bəşirli - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Aparatının Sənaye şöbəsinin müdiri

Samir Qurbanov - Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin İdarə Heyətinin sədri

Vüqar Məcidli - Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Aparatının İqtisadi sahələrin maliyyəsi şöbəsinin müdiri

Rəşad İsmayılov - Azərbaycan İnvestisiya Holdinqinin Aktivlərin idarə olunması departamentinin Hasilat sənayesi və energetika şöbəsinin müdiri.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 may 2022-ci il*

## Azərbaycan Respublikasının ərazisində modul tipli təhsil müəssisələrinin quraşdırılması işlərinin davam etdirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında təhsil infrastrukturunun inkişaf etdirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının ərazisində modul tipli təhsil müəssisələrinin quraşdırılması işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 10 fevral tarixli 3143 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.3-cü yarımbəndində nəzərdə tutulmuş 5,0 (beş) milyon manat bu Sərəncama əlavəyə uyğun olaraq Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncama əlavədə nəzərdə tutulmuş bölgüyə uyğun olaraq maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 may 2022-ci il*

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 may tarixli Sərəncamına əlavə

## Azərbaycan Respublikasının ərazisində quraşdırılması nəzərdə tutulan modul tipli məktəblərin siyahısı

| Sıra №-si | Tədbirin adı | Ayrılan vəsait (min manatla) | İcra müddəti |
|---|---|---|---|
| 1. | Astara rayonunun Diqo kəndində 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285,0 | 2022 |
| 2. | Bərdə rayonunun Qaratəpə kəndində 20 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 207,0 | 2022 |
| 3. | Biləsuvar rayonunun Əmənkənd kəndində 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285,0 | 2022 |
| 4. | Cəlilabad rayonunun Vənlik kəndində 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 354,0 | 2022 |
| 5. | Cəlilabad rayonunun Söyüdlü kəndində 96 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 382,0 | 2022 |
| 6. | Cəlilabad rayonunun Həsənli kəndində 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 354,0 | 2022 |
| 7. | Xaçmaz rayonunun Mollabürhanlı kəndində 96 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 382,0 | 2022 |
| 8. | İsmayıllı rayonunun Çəmənli kəndində 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 354,0 | 2022 |
| 9. | İsmayıllı rayonunun Zərnava kəndində 80 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 354,0 | 2022 |
| 10. | Quba rayonunun Qələdüz kəndində 132 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 424,0 | 2022 |
| 11. | Lerik rayonunun Kəlvəz kəndində 56 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 285,0 | 2022 |
| 12. | Lerik rayonunun Anburdərə kəndində 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285,0 | 2022 |
| 13. | Neftçala rayonunun F.Mayılov adına Şorkənd kəndində 96 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 382,0 | 2022 |
| 14. | Sabirabad rayonunun Güdəcühür kəndində 56 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 285,0 | 2022 |
| 15. | Şamaxı rayonunun ÇölGöylər kəndində 96 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 382,0 | 2022 |
| | **Cəmi:** | **5.000,0** | |



# Azərbaycanla Özbəkistan arasında qardaşlıq münasibətləri bütün istiqamətlərdə özünü göstərir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Özbəkistan Respublikası Ali Məclisinin Qanunvericilik Palatasının sədri Nurdinjon İsmoilovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycanla Özbəkistan arasında qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə, ilk növbədə siyasi sahədə uğurla inkişaf etdiyini vurğuladı, bu işdə iki ölkənin dövlət başçıları arasında münasibətlərin xüsusi önəm daşıdığını qeyd etdi və bu baxımdan Özbəkistana səfərini məmnunluqla xatırladı. Prezident İlham Əliyev tarixi, dil və mədəni yaxınlığın münasibətlərimizin möhkəmlənməsi üçün əsas yaratdığını bildirdi.

İqtisadi sahədə əməkdaşlığa toxunan dövlətimizin başçısı ticarət dövriyyəsinin səviyyəsinin artırılmasının önəmini qeyd etdi və bunun üçün yaxşı imkanların olduğunu vurğuladı. Həm Azərbaycanda, həm də Özbəkistanda nəqliyyat infrastrukturu sahəsində böyük işlərin görüldüyünü deyən Prezident İlham Əliyev bu istiqamətdə əməkdaşlığın genişləndirilməsi və nəqliyyat dəhlizlərinin tam şəkildə işə salınması üçün perspektivlərin mövcud olduğunu bildirdi. Dövlətimizin başçısı ölkələrimizin iqtisadi sahədə qazandığı nailiyyətləri də qeyd edərək qarşılıqlı sərmayə qoyuluşu və digər ölkələrdəki layihələrə birgə sərmayə yatırılması imkanlarının da nəzərdən keçirilməsinin əhəmiyyətini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycanın və Özbəkistanın qanunverici orqanları arasındakı münasibətlərə toxunaraq qarşılıqlı səfərlərin və beynəlxalq parlamentlərarası strukturlardakı əlaqələrimizin bu sahədə əməkdaşlığa töhfə verdiyini bildirdi.

Türk Dövlətləri Təşkilatında əməkdaşlıq məsələlərinə toxunan dövlət başçısı bu təşkilat çərçivəsində iş birliyimizin ölkələrimizin qardaşlığı və tarixi dostluğundan, mədəni köklərdən irəli gələrək təbii əməkdaşlıq xarakteri daşıdığını vurğuladı və bu baxımdan Özbəkistanın bu təşkilata tamhüquqlu üzv olmasının önəmini qeyd etdi.

Prezident İlham Əliyev digər beynəlxalq təşkilatlar, o cümlədən BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində də uğurlu əməkdaşlığın və ölkələrimizin qarşılıqlı dəstəyinin önəminə toxundu.

Dövlət başçısı xüsusi olaraq qeyd etdi ki, qardaş türk dövlətlərinin Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məsələsinə münasibəti ölkəmiz tərəfindən yüksək qiymətləndirilir.

Azərbaycanın beynəlxalq əlaqələrinə toxunan Prezident İlham Əliyev ölkəmizin bütün dövlətlərlə, o cümlədən qonşu ölkələrlə yaxşı münasibətlərə malik olduğunu vurğulayaraq, Azərbaycan tərəfinin Ermənistanla sülh müqaviləsinin imzalanmasını təklif etdiyini bir daha xatırlatdı.

Dövlətimizin başçısı Nurdinjon İsmoilovun səfərinin ikitərəfli münasibətlərimizin inkişafına töhfə verəcəyinə əminliyini ifadə etdi.

Xoş sözlərə görə minnətdarlığını bildirən Nurdinjon İsmoilov ilk növbədə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Eyni zamanda, o, Özbəkistanın dövlət başçısının 28 May - Müstəqillik Günü ilə bağlı təbrik məktubunu Prezident İlham Əliyevə təqdim etdi. Nurdinjon İsmoilov Şavkat Mirziyoyevin Prezident İlham Əliyevin Özbəkistana səfərini gözlədiyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Özbəkistanın dövlət başçısına çatdırmağı xahiş etdi.

Nurdinjon İsmoilov bildirdi ki, Özbəkistan Prezidenti böyük siyasi xadim Ulu Öndər Heydər Əliyevin xatirəsini daim ehtiramla yad edir və Prezident İlham Əliyevin Ümummilli Liderin siyasətini uğurla davam etdirdiyini bildirir. Qonaq Ulu Öndərin bütün həyatını Azərbaycanın inkişafına həsr etmiş siyasi xadim olduğunu vurğuladı.

Özbəkistan Ali Məclisinin Qanunvericilik Palatasının sədri Bakıda gördüyü inkişaf proseslərinin onlarda dərin təəssürat hissi yaratdığını qeyd etdi və ölkəmizin qazandığı nailiyyətlər münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

# Azərbaycanla Özbəkistan dost və qardaş ölkələrdir





**Mayın 16-da Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə rəsmi səfərdə olan Özbəkistan Respublikası Ali Məclisinin Qanunvericilik Palatasının sədri Nurdinjon İsmoilovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, parlamentin Sədri qonaqları səmimi salamlayaraq bu səfərin ölkələrimiz və qanunverici orqanlarımız arasında əlaqələrin inkişafına töhfə verəcəyinə inamını ifadə edib. Spiker bildirib ki, ali və yüksəksəviyyəli səfərlər zamanı aparılan danışıqlar və imzalanmış sənədlər münasibətlərimizin daha da dərinləşməsinə möhkəm zəmin yaradıb. Azərbaycan və Özbəkistan dost, qardaş ölkələrdir. Xalqlarımızı birləşdirən ortaq mədəni, mənəvi dəyərlər əlaqələrimizin daha da inkişafına yaxşı zəmin yaradır.

Spiker Sahibə Qafarova dövlətlərarası münasibətlər sistemində parlamentlərin rolundan danışaraq hər iki ölkə deputatlarının beynəlxalq platformalarda səmərəli fəaliyyətini qeyd edib. Bildirib ki, deputatlarımız TÜRK PA, İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyası kimi qurumların işində yaxından iştirak edirlər. Bu cür tədbirlər çərçivəsində keçirilən görüşlər tərəfləri maraqlandıran məsələlərin müzakirəsi baxımından çox önəmlidir. Milli Məclisin Sədri hər iki ölkənin parlamentində dostluq qruplarının fəaliyyət göstərməsinin təqdirəlayiq olduğunu söyləyib. O qeyd edib ki, deputatlarımızın qarşılıqlı səfərləri təcrübə və informasiya mübadiləsi baxımından önəmlidir.

Söhbət zamanı Sahibə Qafarova qeyd edib ki, Özbəkistan nümayəndə heyəti ölkəmizə rəsmi səfəri çərçivəsində İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Üçüncü Ümumi Konfransında da iştirak edəcək, konfransda müzakirə olunacaq məsələlərə münasibətini bildirəcəkdir.

Görüşdə Milli Məclisin Sədri 44 günlük Vətən müharibəsində Azərbaycanın əldə etdiyi zəfərdən danışaraq vurğulayıb ki, Azərbaycan Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 30 il Ermənistanın işğalı altında qalmış torpaqlarını, həmçinin Azərbaycanın mədəniyyət paytaxtı Şuşanı öz gücü ilə azad edərək böyük bir zəfərə imza atdı. Sahibə Qafarova diqqətə çatdırıb ki, bu gün işğaldan azad olunmuş ərazilərimizdə böyük quruculuq və abadlıq işləri aparılır.

Səmimi görüş üçün minnətdarlığını bildirən Özbəkistan Respublikası Ali Məclisinin Qanunvericilik Palatasının sədri Nurdinjon İsmoilov ölkəmizə səfərindən və burada gördüyü qonaqpərvərlikdən məmnunluğunu ifadə edib. O, diqqətə çatdırıb ki, hər iki ölkə müstəqillik əldə etdikdən sonra münasibətlərimiz keyfiyyətcə yeni səviyyəyə yüksəlib. Yüksəksəviyyəli qarşılıqlı səfərlər əlaqələrimizin daha da dərinləşməsinə xidmət edir.

Nurdinjon İsmoilov hər iki ölkənin qanunvericilik orqanlarında dostluq qruplarının fəaliyyətini parlamentlərarası əlaqələrin inkişafı kontekstində müsbət dəyərləndirib. Qeyd edib ki, bu sahədə əməkdaşlığı dərinləşdirmək üçün yaxşı imkanlar mövcuddur. Qonaq deputatlarımızın beynəlxalq qurumlarda birgə fəaliyyətinin, o cümlədən İƏT PA-da iştirakının əhəmiyyətindən danışıb. Bildirib ki, İƏT PA-nın Bakıda keçiriləcək Üçüncü Ümumi Konfransında müzakirə olunacaq məsələlər quruma üzv dövlətləri düşündürən məsələlər barədə fikir mübadiləsi aparmaq baxımından önəmlidir.

Qonaq Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi zəfəri yüksək dəyərləndirib, Azərbaycandakı inkişafdan məmnunluğunu ifadə edib.

Görüşdə Özbəkistanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Eldar İbrahimov, deputatlardan Ağalar Vəliyev, Afət Həsənova, Aqiyə Naxçıvanlı, ölkəmizin Özbəkistandakı səfiri Hüseyn Quliyev, Özbəkistanın Azərbaycandakı səfiri Bahrom Aşrafxanov və digər rəsmi şəxslər iştirak ediblər.

Sonra Özbəkistan Respublikası Ali Məclisinin Qanunvericilik Palatasının sədri Nurdinjon İsmoilov Milli Məclisin xatirə kitabına ürək sözlərini yazıb.

*"Azərbaycan"*

# Baş nazir Əli Əsədov Birləşmiş Ərəb Əmirliklərinə səfər edib

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 16-da Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərinə səfər edib.**









Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Əbu-Dabi Beynəlxalq Hava Limanında Baş naziri BƏƏ-nin energetika və infrastruktur naziri Suhail Al Mazrouei qarşıladı. Suhail Al Mazrouei ilə qısa görüş əsnasında Baş nazir Əli Əsədov görkəmli dövlət xadimi, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Xəlifə bin Zayed Al Nəhyanın vəfatı ilə əlaqədar başsağlığı verdi.

Sonra Baş nazir Əli Əsədov BƏƏ Prezidentinin iqamətgahında bu ölkənin yeni Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla görüşdü.

Ə.Əsədov Şeyx Xəlifə bin Zayed Al Nəhyanın vəfatı ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti, hökuməti və xalqı adından BƏƏ-nin dövlət başçısına dərin hüznlə başsağlığı verdi. Şeyx Xəlifə bin Zayed Al Nəhyanın Azərbaycan-BƏƏ əlaqələrinin inkişafında böyük xidmətləri olduğu vurğulandı.

Eyni zamanda yeni Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın rəhbərliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin daha da çiçəklənəcəyinə, Azərbaycan-BƏƏ əlaqələrinin müvəffəqiyyətlə inkişaf etməyə davam edəcəyinə əminlik ifadə olundu.

Baş nazir Əli Əsədov, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Vitse-prezidenti, Baş naziri və Dubay Əmiri Şeyx Məhəmməd bin Rəşid Al Məktumla görüşdü, ona dərin hüznlə başsağlığı verdi.

Görüşlərdə iki ölkə arasında əlaqələrin uğurlu inkişafı xüsusi vurğulandı, müxtəlif sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın daha da genişlənəcəyinə əminlik ifadə olundu.

# Azərbaycan İƏT PA-nın fəaliyyətinin gücləndirilməsində maraqlıdır



**Milli Məclisin Sədri Sahibə Qafarova mayın 16-da İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (İƏT PA) Üçüncü Ümumi Konfransında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan qurumun Parlament Assambleyasının Baş katibi Tahir Hüsseyn ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə spiker Sahibə Qafarova ölkəmizin İƏT PA ilə əməkdaşlığa böyük əhəmiyyət verdiyini qeyd edib. O deyib ki, Azərbaycan İƏT PA-nın fəaliyyətinin gücləndirilməsində və təşkilata üzv ölkələrlə ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsində maraqlıdır. Spiker bunun təsdiqi kimi Azərbaycanın 2021-ci ildə İƏT PA-nın nizamnaməsini ratifikasiya etdiyini xatırladıb.

Milli Məclisin Sədri Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Üçüncü Ümumi Konfransına evsahibliyi etdiyini, tədbirdən sonra təşkilata sədrliyin Azərbaycana keçəcəyini diqqətə çatdırıb. O bildirib ki, Azərbaycan təşkilata sədrliyi dövründə İƏT PA-nın fəaliyyətinin gücləndirilməsi istiqamətində müvafiq səylər göstərəcək.

İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Baş katibi Tahir Hüsseyn görüşə və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirərək Milli Məclisin konfransın keçirilməsi ilə bağlı gördüyü işləri yüksək qiymətləndirib. O, həmçinin Azərbaycanla rəhbərlik etdiyi təşkilat arasında əlaqələrin hazırkı səviyyəsindən razılığını bildirib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Azərbaycanla Türkiyənin uğurları ölkələrimizin beynəlxalq miqyasda nüfuzunun daha da artmasına xidmət edir

**Mayın 16-da Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə Sahibə Qafarova qonağı səmimi salamlayaraq Azərbaycanla Türkiyə əlaqələrinin çox yüksək səviyyədə olmasından məmnunluğunu ifadə edib. Parlamentin Sədri bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə işgüzar səfəri çərçivəsində Rizə-Artvin Hava Limanının açılış mərasimində iştirakını xatırlayaraq iki qardaş ölkənin liderlərinin növbəti dəfə bir araya gəlməsini yüksək dəyərləndirib. Qeyd edib ki, iki ölkə arasındakı münasibətlər günbəgün inkişaf etməkdədir. Hər iki ölkənin əldə etdiyi uğurlar ölkələrimizin beynəlxalq miqyasda nüfuzunun daha da artmasına xidmət edir.

Spiker Bakıda keçiriləcək İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Üçüncü Ümumi Konfransında Türkiyə nümayəndə heyətinin iştirakını yüksək qiymətləndirib və konfransda müzakirə olunacaq məsələlərin əhəmiyyətindən danışıb.

Milli Məclisin Sədri konfransa hazırlıq işləri barədə danışaraq tədbirdə iştirak edəcək nümayəndə heyətləri ilə keçirdiyi görüşlərdən bəhs edib. Qeyd edib ki, konfransda təşkilata sədrlik Pakistandan Azərbaycana keçəcəkdir. Azərbaycan təşkilatın sədri kimi qurumun nüfuzunun daha da artması, təşkilata üzv ölkələr arasında əlaqələrin daha da dərinləşməsi üçün üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlmək üçün bütün səylərini əsirgəməyəcək.

Sahibə Qafarova işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən böyük bərpa və quruculuq işləri haqqında məlumat verərək qeyd edib ki, çox qısa müddətdə həmin ərazilərdə nəhəng infrastruktur layihələri reallaşdırılıb, yeni yollar salınıb, yüksək standartlara cavab verən Füzuli Hava Limanı istifadəyə verilib. Həyata keçirilən quruculuq işlərində qardaş Türkiyə şirkətləri yaxından iştirak edirlər. Spiker Türkiyənin Azərbaycana hər zaman göstərdiyi dəstəyə görə öz minnətdarlığını bildirib.

Səmimi görüş üçün təşəkkür edən Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop ölkəmizə növbəti dəfə səfərindən məmnunluğunu ifadə edib. Qeyd edib ki, səfərdən məqsəd İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Üçüncü Ümumi Konfransında iştirak etmək və burada müzakirə olunacaq məsələlərə fəal şəkildə qatılmaqdır.

Bununla yanaşı, konfransda müzakirə olunacaq məsələlərin quruma üzv dövlətlər üçün əhəmiyyətindən bəhs edən Mustafa Şentop burada keçiriləcək görüşlərin də əlaqələrin dərinləşməsi baxımından əhəmiyyətli olacağını bildirib. Qeyd edib ki, parlamentlər səviyyəsində əlaqələrin daha da dərinləşməsi, deputatların mütəmadi görüşləri qurum qarşısında duran vəzifələrin həlli, o cümlədən qanunverici orqanlar arasında ikitərəfli əlaqələrin inkişafı baxımından önəmlidir.

Mustafa Şentop Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə son səfərini xatırladaraq deyib ki, Türkiyə-Azərbaycan münasibətləri dünyada bənzəri olmayan münasibətlərdir və bu münasibətlər həqiqətən "bir millət, iki dövlət" xarakteri daşıyır.

Söhbət zamanı tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Əlaqələr ölkələrimiz müstəqillik qazandıqdan sonra daha da inkişaf edib

**Mayın 16-da Milli Məclisin Sədri Sahibə Qafarova İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Üçüncü Ümumi Konfransında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Qazaxıstan Respublikası Parlamenti Məclisi Sədrinin müavini Balaim Kesebayeva ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonağı salamlayan Milli Məclisin Sədri Sahibə Qafarova xalqlarımız arasındakı dostluq və qardaşlıq münasibətlərindən, ortaq mədəni və mənəvi dəyərlərimizdən danışıb. Bildirib ki, tarixən mövcud olan qardaşlıq əlaqələrimiz ölkələrimiz müstəqillik qazandıqdan sonra daha da inkişaf edib və bu il diplomatik münasibətlərimizin yaradılmasının 30 illiyini qeyd edəcəyik.

Qazaxıstan Respublikasına rəsmi səfərini və keçirdiyi görüşləri xatırlayan spiker aparılan danışıqların qanunverici orqanlarımız arasında münasibətlərin dərinləşməsinə töhfə verdiyini diqqətə çatdırıb. O, parlamentlərin ölkələrimiz arasında münasibətlərdə körpü rolunu oynadığını qeyd edərək bu sahədə parlamentlərarası dostluq qruplarının fəaliyyətinin əhəmiyyətini vurğulayıb. Spiker parlamentlərimizin TÜRK PA və digər beynəlxalq təşkilatlarla yanaşı, İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyası çərçivəsində də uğurla əməkdaşlıq etdiyini qeyd edib. Sahibə Qafarova İƏT PA-nın Pakistanda keçirilmiş İkinci Ümumi Konfransında müzakirə edilmiş məsələlərin əhəmiyyətindən və həmin tədbirdə iştirakından danışıb. Bildirib ki, sabah təşkilatın Bakıda keçiriləcək Üçüncü Konfransında da mühüm məsələlər müzakirə ediləcək.

Görüşdə spiker Sahibə Qafarova Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı Qələbə barədə də danışaraq bildirib ki, Azərbaycan bu qələbə sayəsində 30 ilə yaxın Ermənistanın işğalı altında olan ərazilərini, həmçinin Azərbaycanın mədəniyyət beşiyi olan Şuşa şəhərini işğaldan azad edib. İƏT PA-nın Üçüncü Ümumi Konfransının iştirakçıları Şuşaya səfər zamanı bu gözəl şəhərlə yaxından tanış olmaq imkanı əldə edəcəklər.

Qonaqpərvərliyə görə təşəkkürünü bildirən Qazaxıstan Respublikası Parlamenti Məclisi Sədrinin müavini Balaim Kesebayeva Azərbaycanda ilk dəfə olduğunu və bu səfərdən məmnunluq duyduğunu qeyd edib.

Qazaxıstan Parlamenti Məclisinin vitse-spikeri Azərbaycana dəvətə görə təşəkkür edib. O, xalqlarımızın ortaq dəyərlərə malik olduğunu, müstəqillik illərində münasibətlərin böyük inkişaf yolu keçdiyini deyib. Qonaq qeyd edib ki, parlamentlər arasında əlaqələrin inkişafı münasibətlərimizin daha da dərinləşməsi baxımından əhəmiyyətlidir.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Qazaxıstanın ölkəmizdəki səfiri Serjan Abdıkərimov və digər rəsmi şəxslər iştirak ediblər.

***Rəşad CƏFƏRLİ,***
*"Azərbaycan"*

# Azərbaycanla İƏT arasında uğurlu əməkdaşlıq həyata keçirilir

**Milli Məclisin Sədri Sahibə Qafarova mayın 16-da İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Xusrav Noziri ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonağı səmimiyyətlə salamlayan spiker, bu il Azərbaycanın təşkilata üzvlüyünün 30-cu ildönümünün tamam olduğunu, bu illər ərzində tərəflər arasında uğurlu əməkdaşlıq həyata keçirildiyini diqqətə çatdırıb.

Qeyd olunub ki, Azərbaycan regionun iqtisadi potensialından səmərəli istifadə etmək üçün qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsində maraqlıdır. Ölkəmiz həmişə beynəlxalq iqtisadi əməkdaşlıq və inteqrasiya səylərinə öz dəstəyini göstərir. Bu kontekstdə Azərbaycanın İƏT çərçivəsində əməkdaşlığa verdiyi töhfələr vurğulanıb.

Görüşdə Milli Məclisin Sədri Azərbaycanla İƏT arasında münasibətlərin möhkəmləndirilməsi, 44 günlük Vətən müharibəsində Azərbaycanın əldə etdiyi qələbə və münaqişənin həllindən sonra regionda yeni yaranmış şərait, işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və quruculuq işləri, kommunikasiyaların bərpasının və yeni dəhlizlərin yaradılmasının əhəmiyyəti, İƏT Parlament Assambleyasının Bakıda keçiriləcək Üçüncü Ümumi Konfransına hazırlıq məqsədilə görülən işlər və digər məsələlər barədə danışıb.

Baş katib Xusrav Noziri görüşə və göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını ifadə edib. O, Azərbaycana ikinci dəfə səfər etdiyini və ölkəmizin yüksək səviyyədə inkişafa nail olduğunu vurğulayıb.

Xusrav Noziri Azərbaycanın İƏT-də fəal rol oynayan üzv dövlətlərdən biri olduğunu qeyd edib. O, Azərbaycanın təşkilatda fəal təmsilçiliyini, həmçinin Milli Məclisin İƏT Parlament Assambleyasının Üçüncü Ümumi Konfransının keçirilməsi ilə bağlı gördüyü işləri yüksək qiymətləndirib.

*"Azərbaycan"*

# Yüksəksəviyyəli siyasi dialoq əməkdaşlığın dərinləşməsinə öz təsirini göstərir

**Mayın 16-da Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Qırğız Respublikası Joqorku Keneşinin sədr müavini Ulan Primovla görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, parlamentin Sədri qonağı salamlayaraq Azərbaycanın Qırğızıstanla əlaqələrin inkişafına böyük önəm verdiyini bildirib. Spiker qeyd edib ki, Azərbaycan və Qırğız xalqları ortaq tarixə, mədəni və mənəvi dəyərlərə malikdirlər. Ölkələrimiz müstəqillik əldə etdikdən sonra münasibətlərimiz keyfiyyətcə yeni səviyyəyə yüksəlib. Yüksəksəviyyəli siyasi dialoq əməkdaşlığımızın həyatın digər sahələrində də dərinləşməsinə öz təsirini göstərir.

Parlamentlərarası əlaqələrdən söz açan spiker hər iki ölkənin qanunvericilik orqanları arasında münasibətlərin dərinləşməsinin ümumi mənafelərə xidmət etdiyini söyləyib. Bildirib ki, deputatlarımız beynəlxalq təşkilatlar çərçivəsində mütəmadi olaraq görüşür, səmərəli fəaliyyət göstərirlər. Bu baxımdan, Qırğızıstan nümayəndə heyətinin Bakıda keçiriləcək İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Üçüncü Ümumi Konfransına qatılmasını Milli Məclisin Sədri yüksək dəyərləndirib, konfransda müzakirə olunacaq məsələlərin əhəmiyyətindən danışıb.

Spiker İƏT PA-nın Üçüncü Ümumi Konfransında iştirak edəcək nümayəndə heyətləri rəhbərlərinin Şuşaya səfərindən söz açaraq Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı zəfərdən danışıb. Bildirib ki, Şuşa nəinki Azərbaycanın mədəniyyət paytaxtıdır, həm də bütün türk dünyasının ayrılmaz bir parçasıdır.

Sahibə Qafarova qeyd edib ki, vaxtilə işğal altında olan torpaqlarımızda Ermənistan tərəfi bütün şəhər və qəsəbələri dağıtmış, yaşayış məskənlərini viran qoymuşdur. İndi isə azad olunmuş ərazilərimizdə sürətli quruculuq və bərpa işləri aparılır. Spiker bölgəyə səfər zamanı qonaqların bütün bunların canlı şahidi olacaqlarını söyləyib.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Qırğız Respublikası Joqorku Keneşinin sədr müavini Ulan Primov ölkəmizə səfərindən və Azərbaycan parlamentində olmağından məmnunluğunu ifadə edib. İƏT PA-nın Üçüncü Ümumi Konfransında iştiraka dəvətə görə qonaq Milli Məclisin Sədrinə təşəkkür edib. Qeyd edib ki, Qırğız xalqının Azərbaycan xalqı ilə ümumi ortaq dəyərləri vardır. Bu mənəvi yaxınlıq əlaqələrimizin inkişafı üçün yaxşı zəmin yaradır. Dövlət başçılarımızın səfərləri və görüşləri, yüksəksəviyyəli nümayəndə heyətlərinin müxtəlif platformalarda həyata keçirdikləri görüşlər tərəfləri maraqlandıran məsələlərin müzakirəsi baxımından çox önəmlidir.

Qonaq parlamentlərarası əlaqələrin iqtisadi, mədəni, humanitar sahələrdə münasibətlərin dərinləşməsinə də müsbət təsir edəcəyinə inamını ifadə edib.

Söhbət zamanı tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Münasibətlərin yüksələn xətlə inkişaf etməsi hər iki ölkənin mənafeyinə uyğundur

**Mayın 16-da Milli Məclis sədrinin müavini, Qazaxıstanla Parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Adil Əliyev ölkəmizdə səfərdə olan Qazaxıstan Respublikası Parlament Məclisi sədrinin müavini, Azərbaycanla parlament dostluq qrupunun rəhbəri Balaim Kesebayeva ilə görüşüb.**





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonağı salamlayan Adil Əliyev ölkələrimizin tarixi əlaqələrindən danışaraq bu münasibətlərin yüksələn xətlə inkişaf etməsinin hər iki ölkənin mənafeyinə uyğun olduğunu qeyd edib. Bildirib ki, dostluq münasibətlərinin inkişafında və möhkəmləndirilməsində parlamentlərarası əməkdaşlıq mühüm yer tutur.

Azərbaycanın 30 il ərzində işğal altında qalmış tarixi torpaqlarının azad edilməsinə toxunan sədr müavini bu Qələbədən sonra regionda yaranmış yeni vəziyyət barədə danışıb. Adil Əliyev ölkəmizin hər zaman sülh mövqeyindən çıxış etdiyini bildirərək Ermənistandakı bəzi dairələrin bu sülhdən narahat olduğunu və hər vəchlə buna mane olmağa cəhd etdiyini bildirib. Eləcə də ölkəmizin ərazisinin minalarla ən çox çirkləndirilmiş bölgələrdən biri olduğunu deyən sədr müavini, Azərbaycanın bu sahədə ən az yardım alan ölkələrin sırasında olduğunu qeyd edib. Bildirib ki, Ermənistanın mina xəritələrini tam təqdim etməməsi səbəbindən mülki şəxslər və hərbçilər bu minaların qurbanına çevrilir və ya xəsarət alırlar.

Adil Əliyev diqqətə çatdırıb ki, bütün bunlara baxmayaraq, uzun illər işğal altında qalmış və dağıdılmış tarixi Azərbaycan torpaqlarında aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri sayəsində bu yerlərə yeni nəfəs gəlib.

Qazaxıstan Respublikası Parlament Məclisi sədrinin müavini Balaim Kesebayeva səmimi görüşə görə minnətdarlığını bildirərək iki qardaş dövlət arasında dostluğun daha da dərinləşməsindən məmnunluğunu ifadə edib. O, müxtəlif istiqamətlərdə olan əməkdaşlıq münasibətlərimizin ölkələrimizə töhfə verdiyini qeyd edib, istər ikitərəfli, istərsə də beynəlxalq miqyasda hər iki ölkənin bir-birinə dəstək verməsinin dostluğumuzun simvolu olduğunu qeyd edib.

Söhbət zamanı tərəfləri maraqlandıran digər məsələlər də müzakirə edilib.

*"Azərbaycan"*

# İƏT Baş katibi Azərbaycanın təşkilatın fəaliyyətinə töhfəsini yüksək qiymətləndirib

**Mayın 16-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Xusrav Noziri ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov Azərbaycanın İƏT ilə əməkdaşlığa əhəmiyyət verdiyini vurğulayıb. O, Baş katib ilə bundan əvvəl keçirilmiş görüşlər zamanı aparılan fikir mübadilələrinə istinad edərək təşkilatın Aşqabad Zirvə görüşündə qəbul olunmuş sənədlərin icrasının vacibliyini qeyd edib. Xüsusilə də "İƏT Baxışı-2025" sənədinin və burada müəyyən edilmiş prioritet istiqamətlərin Azərbaycan üçün də böyük önəm kəsb etdiyi qarşı tərəfin diqqətinə çatdırılıb. Bu ilin İƏT-də "Nəqliyyat - bağlantı ili" kimi qeyd edildiyi və bu xüsusda Azərbaycanın İƏT bölgəsində nəqliyyat-bağlantı əlaqələrinin inkişafına böyük diqqətlə yanaşdığı ifadə edilib.

Baş katib Xusrav Noziri Azərbaycanın İƏT-in fəaliyyətinə verdiyi töhfəni yüksək qiymətləndirib. O, İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (İƏT PA) Üçüncü Ümumi Konfransına uğurla evsahibliyi edəcəyi üçün Azərbaycan tərəfinə təbriklərini çatdırıb. Parlament ölçüsünün üzv ölkələr arasında əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyəti vurğulanıb. Baş katib həmçinin cari ildə İƏT çərçivəsində nəqliyyat-bağlantı sahəsində əlaqələrin inkişafına xüsusi diqqətin ayrıldığını qeyd edərək bununla əlaqədar Azərbaycanın həm coğrafi yerləşmə baxımından, həm də tranzit mərkəz kimi rolunu xüsusilə vurğulayıb.

Görüşdə tərəflər İƏT-in ixtisaslaşmış qurumlarının fəaliyyəti üzrə fikir mübadiləsi aparıb, o cümlədən Azərbaycanın evsahibliyi edəcəyi İƏT Tədqiqat Mərkəzi və Təmiz Enerji Mərkəzinin yaxın zamanlarda fəaliyyətə başlamasının əhəmiyyətini vurğulayıblar. Yaxın günlərdə İƏT-in gələcək fəaliyyəti ilə bağlı üzv ölkələrin ekspertlərinin iştirakı ilə müzakirələrin aparılacağı və Azərbaycan nümayəndə heyətinin də bu müzakirələrdə iştirak edəcəyi diqqətə çatdırılıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

# Prezident Administrasiyasında Milli Dirçəliş Hərəkatı Partiyasının sədri ilə görüş keçirilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə ölkəmizdə reallaşan siyasi dialoq prosesi çərçivəsində siyasi partiya rəhbərləri ilə təşkil olunan görüş və diskussiyalar davam etdirilir. Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin növbəti görüşü mayın 16-da Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev ilə keçirilib.**



Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Ədalət Vəliyev Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan islahatlar, İkinci Qarabağ müharibəsi, yeni geosiyasi reallıqlar, Azərbaycanın dünya siyasi arenasında artan rolu, işğal nəticəsində Azərbaycana dəymiş ziyanın kompensasiyası, Qarabağa Böyük Qayıdış və digər aktual məsələlər barədə fikirlərini səsləndirib.

Şöbə müdiri siyasi dialoq, siyasi partiyaların cəmiyyətdə rolu, müxalifətlə konstruktiv əməkdaşlıq və yaranmış sağlam mühit haqqında geniş məlumat verib. Müvafiq istiqamətdə görülmüş işlərin əhəmiyyətini vurğulayan Administrasiya rəsmisi bildirib ki, Prezident İlham Əliyevin siyasi iradəsi ilə ölkəmizdə partiyaların inkişafı üçün yaradılan şərait bilavasitə ölkə rəhbərliyinin dövlət quruculuğu məsələlərində demokratik dəyərlərə verdiyi qiymətdən xəbər verir.

Bütün demokratik təşəbbüslərə rəğmən, sabitliyin pozulmasına xidmət edən təxribatlar təəssüf hissi doğurur, milli maraqların toxunulmazlığına təhdid yaradan radikal meyillər cəmiyyət tərəfindən qəbul edilmir və sərt tənqid olunur. Azərbaycanda uzun illər ərzində yaşanan siyasi sabitlik dayanıqlı inkişafın əsasıdır və bu sabitlik milli maraqlarımızın tərkib hissəsidir.

Bununla yanaşı, görüş əsnasında siyasi partiyaların gündəlik fəaliyyəti ilə bağlı müxtəlif səpkili məsələlər, partiyaların ictimai nüfuzu, qərargahla təmin olunması və maliyyə hesabatlarının təqdim edilməsi kimi mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Fərəc Quliyev 44 günlük Vətən müharibəsi zamanı yaranan birliyi yüksək qiymətləndirərək cəmiyyətin, o cümlədən siyasi partiyaların nümayiş etdirdiyi həmrəylikdən danışaraq ümummilli və dövlətçilik məsələlərində özünün və rəhbərlik etdiyi siyasi partiyanın dövlətin yanında olduğunu xüsusi vurğulayıb.

Görüş zamanı dövlətimizin Ermənistanla sülh müqaviləsinin bağlanması istiqamətindəki mövqeyinin də partiya tərəfindən dəstəkləndiyi bildirilib. Fərəc Quliyev xarici siyasətdə atılan addımları təqdir edib, bu istiqamətdə aparılan siyasətin tezliklə bütövlükdə Qafqaz regionunda sabitliyi və dayanıqlı təhlükəsizliyi təmin edəcəyini diqqətə çatdırıb.

Həmçinin görüşdə ölkəmizdə pandemiya ilə mübarizədə görülmüş tədbirlər yüksək qiymətləndirilib. Bu sahədə qazanılan təcrübənin digər ölkələr üçün də nümunə olduğu vurğulanıb.

Administrasiya rəsmisi Ədalət Vəliyev görüşün sonunda konstruktiv əməkdaşlığın əhəmiyyətini bir daha vurğulayaraq Fərəc Quliyevə və onun sədrlik etdiyi siyasi partiyaya dövlətçiliyimizin möhkəmləndirilməsi istiqamətində gələcək fəaliyyətində uğurlar arzulayıb.

# Ölkəmizə rəsmi səfərə gəliblər

## Özbəkistan Ali Məclisinin Qanunvericilik Palatasının Sədri



**Mayın 15-də Özbəkistan Ali Məclisinin Qanunvericilik Palatasının Sədri Nurdinjon İsmoilovun başçılıq etdiyi parlament nümayəndə heyəti ölkəmizə rəsmi səfərə gəlib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Heydər Əliyev Beynəlxalq Hava Limanında Özbəkistan parlament nümayəndə heyətini Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli, Özbəkistanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Eldar İbrahimov, hər iki ölkənin səfirləri Hüseyn Quliyev, Bahrom Aşrafxanov və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində Özbəkistan nümayəndə heyəti ölkəmizdə bir sıra rəsmi görüşlər keçirəcək, İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Üçüncü Ümumi Konfransında iştirak edəcəkdir.

Rəsmi səfər mayın 19-da başa çatacaq.

## Özbəkistan Ali Məclisinin Qanunvericilik Palatasının Sədri Ulu Öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət edib





**Ölkəmizdə səfərdə olan Özbəkistan Respublikası Ali Məclisinin Qanunvericilik Palatasının Sədri Nurdinjon İsmoilovun başçılıq etdiyi nümayəndə heyəti mayın 16-da Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, abidəsi önünə əklil qoyub.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər güllər qoyulub.

Sonra Şəhidlər xiyabanına gələn Özbəkistan nümayəndə heyətinin üzvləri Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Sonda Bakının ən hündür nöqtəsindən paytaxtımızın mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Ziyarət zamanı nümayəndə heyətini Özbəkistan ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Eldar İbrahimov və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

## Türkiyə Böyük Millət Məclisinin Sədri



Mayın 16-da Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun başçılıq etdiyi parlament nümayəndə heyəti İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Üçüncü Ümumi Konfransında iştirak etmək üçün ölkəmizə səfərə gəlib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Heydər Əliyev Beynəlxalq Hava Limanında Türkiyə parlament nümayəndə heyətini Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli, Türkiyə ilə parlamentlərarası dostluq qrupunun rəhbəri Əhliman Əmiraslanov, ölkəmizin Türkiyədəki səfiri Rəşad Məmmədov,Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər mayın 18-də başa çatacaq.

## Pakistan İslam Respublikası Milli Assambleyasının Sədri



Mayın 16-da Pakistan İslam Respublikası Milli Assambleyasının Sədri Raca Pərviz Əşrəfin başçılıq etdiyi nümayəndə heyəti İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Üçüncü Ümumi Konfransında iştirak etmək üçün ölkəmizə səfərə gəlib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Heydər Əliyev Beynəlxalq Hava Limanında nümayəndə heyətini Pakistanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri - Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili, deputat Mahir Abbaszadə, Pakistanın Azərbaycandakı səfiri Bilal Haye və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər mayın 19-da başa çatacaq.

## İran İslam Respublikası İslam Şurası Məclisi Sədrinin birinci müavini



Mayın 16-da İran İslam Respublikası İslam Şurası Məclisi Sədrinin birinci müavini Əli Nikzadın başçılıq etdiyi parlament nümayəndə heyəti İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Üçüncü Ümumi Konfransında iştirak etmək üçün ölkəmizə səfərə gəlib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Heydər Əliyev Beynəlxalq Hava Limanında İran parlament nümayəndə heyətini Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov, İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi və digər rəsmi şəxslər qarşılayıblar.

## Qazaxıstan Respublikası Parlament Məclisi Sədrinin müavini

Mayın 15-də Qazaxıstan Respublikası Parlament Məclisi Sədrinin müavini Balaim Kesebayevanın başçılıq etdiyi parlament nümayəndə heyəti İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Üçüncü Ümumi Konfransında iştirak etmək üçün ölkəmizə səfərə gəlib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Heydər Əliyev Beynəlxalq Hava Limanında Qazaxıstan parlament nümayəndə heyətini Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili, Milli Məclisin deputatı Könül Nurullayeva, Qazaxıstanın Azərbaycandakı səfiri Serjan Abdıkərimov və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər mayın 19-da başa çatacaq.

## Tacikistan Respublikası Ali Məclisinin Nümayəndələr Palatasının Sədri

Mayın 16-da Tacikistan Respublikası Ali Məclisinin Nümayəndələr Palatasının Sədri Mahmadtoir Zokirzodanın başçılıq etdiyi parlament nümayəndə heyəti İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Üçüncü Ümumi Konfransında iştirak etmək üçün ölkəmizə səfərə gəlib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Heydər Əliyev Beynəlxalq Hava Limanında Tacikistan parlament nümayəndə heyətini Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev, Azərbaycan-Tacikistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Aydın Mirzəzadə, Tacikistanın Azərbaycandakı səfiri Rustam Soli və digər rəsmi şəxslər qarşılayıblar.

## Qırğız Respublikası Joqorku Keneşinin Sədr müavini



Mayın 16-da Qırğız Respublikası Joqorku Keneşinin Sədr müavini Ulan Primovun başçılıq etdiyi parlament nümayəndə heyəti İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Üçüncü Ümumi Konfransında iştirak etmək üçün ölkəmizə səfərə gəlib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Heydər Əliyev Beynəlxalq Hava Limanında Qırğızıstan parlament nümayəndə heyətini Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, Azərbaycan-Qırğızıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Musa Quliyev, Qırğızıstanın Azərbaycandakı səfiri Kairat Osmonaliyev və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər mayın 18-də başa çatacaq.

*"Azərbaycan"*

# Regionun inkişaf təminatçıları

## İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın təşəbbüsləri Avrasiyanın təhlükəsizliyinə və rifahına mühüm töhfə verir

**Türkiyədə istifadəyə verilən Rizə-Artvin Hava Limanı qardaş dövlətin inkişafının təcəssümü ilə yanaşı, dünyaya başqa bir mesaj verdi. Dənizin üzərində inşası başa çatdırılan bu möhtəşəm hava limanının açılışında Prezident Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Prezident İlham Əliyevin iştirak etməsi isə Azərbaycan-Türkiyə münasibətlərinin ən yüksək səviyyəyə çatdığını və ardıcıl inkişafda olduğunu nümayiş etdirdi.**

### İlham ƏLİYEV: "Azərbaycan xalqı heç vaxt bu qardaşlığı unutmayacaq"

Məzmununa və miqyasına görə beynəlxalq münasibətlər sistemində Azəbaycan-Türkiyə əlaqələrinin analoqunu tapmaq mümkün deyil. Tarixin sınaqlarından çıxan, daim dərinləşən bu münasibətlərin hansı səviyyədə olması 2020-ci ilin Vətən müharibəsində özünü daha yaxından göstərdi. Təsadüfi deyil ki, 44 gün davam edən savaş günlərində xalqımız kimi Türkiyə ictimaiyyəti də Qələbəyə köklənmişdi. Müharibənin gedişatında Türkiyə dövləti, onun siyasi-hərbi rəhbərliyi birmənalı şəkildə Azərbaycanın yanında oldular, ölkəmizin haqlı mövqeyini, ərazi bütövlüyünü qətiyyətlə müdafiə etdilər. Bu ölkənin siyasi və hərbi rəhbərliyi birmənalı və qəti şəkildə Azərbaycanı dəstəkləyən bəyanatlar verdilər. Ermənistanın təəssübünü çəkən siyasi dairələr gördülər ki, Azərbaycan tək deyil.

Bu müharibə qardaşlığımızı daha da möhkəmləndirdi, sarsılmaz etdi. Türk dünyasının öndərləri olan Heydər Əliyevin "Bir millət-iki dövlət" və Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" kəlamları bir daha öz təsdiqini tapdı. Prezident İlham Əliyev Rizə-Artvin Hava Limanının açılış mərasimində İkinci Qarabağ savaşının bizim müştərək, ortaq şanlı tariximiz olduğunu bildirərək deyib: "Otuzillik işğala son qoyduq və savaşın ilk günündə hörmətli Prezident, qardaşım Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır" deməsi bir çoxları üçün ciddi mesaj oldu. Savaşın son dəqiqəsinə qədər - Şuşa şəhərində bayrağımız ucalana qədər Türkiyə bizim arxamızda idi, bizə arxa idi, dayaq idi və Azərbaycan xalqı heç vaxt bu qardaşlığı unutmayacaq".

Ötən ilin iyun ayından Azərbaycan-Türkiyə münasibətlərinin tarixində məzmun və keyfiyyətcə yeni mərhələnin təməli qoyuldu. "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" iki dövlət arasındakı strateji tərəfdaşlığın siyasi və mənəvi təcəssümü oldu. Həm Şuşa Bəyannaməsi, həm də Türkiyə Prezidentinin işğaldan azad olunmuş Azərbaycan ərazilərinə səfərləri Azərbaycan-Türkiyə dostluğunun və qardaşlığının sarsılmazlığını dünyaya bəyan etmişdi. Ötən il Türkiyədə baş verən meşə yanğınları və hazırda Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və quruculuq işləri göstərir ki, iki dövlət hər zaman bir-birinin yanındadır.

### Sabitliyə və əməkdaşlığa xidmət edən strateji müttəfiqlik

Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan qarşısında duran çox mürəkkəb və taleyüklü məsələlərin həllinə nail olub, öz tarixi inkişafının zirvəsinə yüksəlib. Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi dövründə isə Türkiyə dünyanın aparıcı ölkələrindən birinə çevrilib və hazırda bütün sahələrdə yüksək tərəqqi nümayiş etdirir. Güclənən iki qardaş dövlətin strateji müttəfiqliyi bütün Avrasiyanın təhlükəsizliyinə və inkişafına mühüm töhfədir.

Şuşa Bəyannaməsində də qeyd olunur ki, Azərbaycanla Türkiyə regional və beynəlxalq miqyasda sabitlik və rifah vasitəsilə sülh, dostluq və mehriban qonşuluğa əsaslanan beynəlxalq münasibətlərin inkişaf etdirilməsi, eləcə də münaqişələrin, regional və qlobal təhlükəsizlik, sabitlik məsələlərinin həlli istiqamətində birgə səylər göstərirlər. Həmçinin aktual xarakter kəsb edən, qarşılıqlı maraq doğuran beynəlxalq məsələlər üzrə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirərək yaxın mövqedən çıxış etməklə ikitərəfli əməkdaşlığı dərinləşdirəcəklər.

Azərbaycanla Türkiyənin öz münasibətlərində Şuşa Bəyannaməsində qeyd olunan bu prinsipləri rəhbər tutmaları bölgədə və yaxın coğrafiyalarda sülhün və təhlükəsizliyin təmin olunmasına xidmət edir. Bu baxımdan Azərbaycanla Türkiyə arasında Şuşa Bəyannaməsi ilə yeni keyfiyyət mərhələsinə yüksələn müttəfiqlik hər iki dövlətin bu kimi məsələlərdə imkanlarını artırır, güclərinə güc qatır. Ona görə Azərbaycan-Türkiyə müttəfiqliyi onların özlərinin təhlükəsizliyini daha da gücləndirməklə yanaşı, həm də Avrasiyada sülhün və rifahın təmin olunmasına yönəlib.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan arasındakı möhkəm dostluq, Azərbaycan-Türkiyə qardaşlığı təkcə iki ölkə arasında münasibətlərin inkişafına deyil, bütün türk dünyasında əlaqələrin möhkəmlənməsinə xidmət edir. Məlum olduğu kimi, indiyədək Azərbaycan və Türkiyənin birgə əməkdaşlığı ilə həyata keçirilən iqtisadi layihələr həm də Orta Asiyanın türkdilli dövlətləri üçün geniş imkanlar yaradıb.

İkinci Qarabağ müharibəsindən sonra regionda sülhün və təhlükəsizliyin əbədi bərqərar olması üçün edilən real təşəbbüslərin də təməlində Azərbaycan-Türkiyə qardaşlığı dayanır. Bölgədə yaranmış yeni reallıqlar fonunda Bakı və Ankaranın yürütdüyü sülhpərvər siyasət bunu təsdiq edir. İki dövlət sülhün təmin edilməsi, regionda yeni iqtisadi əməkdaşlıq imkanlarının yaradılması, inteqrasiyanın dərinləşməsi üçün səylərini əsirgəmirlər. Hansı ki bütün bunlar regionun nikbin və təhlükəsiz gələcəyinə xidmət edir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# "Qardaşlıq körpüsü"

## İlham Əliyevin Rizəyə səfəri Türkiyə mediasının əsas manşet mövzusu oldu

Azərbaycan ilə Türkiyə dostluq və qardaşlıq münasibətlərinə söykənərək bölgədə və dünyada gedən proseslərə həmişə eyni mövqe sərgiləyib, ortaq maraqlardan çıxış ediblər. İstər İlham Əliyevin, istərsə də Rəcəb Tayyib Ərdoğanın qarşılıqlı əlaqələrin inkişafına verdiyi diqqət və önəm şübhəsiz ki, möhkəm özüllər üzərində qurulan münasibətləri daha da güdrətləndirir.

Mayın 14-də İlham Əliyevin Türkiyədə Rizə-Artvin Hava Limanının açılış mərasimində iştirak etməsi qardaş ölkənin bir neçə yüz minlik tirajlı qəzetlərinin əsas manşet mövzusuna çevrilib. Baxış sayı milyona çatan internet portalları, sosial şəbəkədəki səhifələr həm ikli dövlət başçısının çıxışlarını anbaan yeniləyərək oxuculara çatdırıblar. Teleşirkətlər isə həmin hadisəni canlı yayımlar vasitəsilə izləyicilərə göstəriblər. Onlardan bəzilərini oxucuların diqqətinə çatdırırıq.

"Milliyət" qəzeti "Qardaşlıq körpüsü" adlı xəbəri manşetdən verib. Yazıda bildirilib ki, bu qardaşlıq siyasi, iqtisadi, ticarət, elm, təhsil, mədəniyyət və digər sahələr üzrə ikitərəfli əməkdaşlığın çevik inkişafı ilə yanaşı, Azərbaycan və Türkiyəyə yeni-yeni uğurlar vəd edir. Hər iki dövlət başçısının açıqlamalarını diqqətə çatdıran qəzet İlham Əliyevin çıxışına geniş yer ayırıb: "Biz hər zaman bir yerdəyik - xoş günlərdə, yaxşı günlərdə, çətin günlərdə də və İkinci Qarabağ savaşı bunu bir daha bütün dünyaya göstərdi". Prezidentin həmçinin Rəcəb Tayyib Ərdoğan haqqında söylədiyi "Qardaş Türkiyə gündən-günə güclənir, sürətlə inkişaf edir. Bütün bunun təməlində aparılan siyasət, əziz qardaşımın böyük əməyi, zəhməti var. Türkiyə bu gün dünya miqyasında böyük güc mərkəzinə çevrilib" fikirləri də xüsusi vurğulanıb.

"Axşam" qəzeti "57-ci qürur anıtı" başlıqlı xəbərində Prezident İlham Əliyevin "Biz qardaşıq, müttəfiqik" fikirlərinə geniş yer ayırıb. Qeyd edilib ki, Türkiyə-Azərbaycan əlaqələri ən yüksək səviyyədədir. Dünyada bir-birinə yaxın olan, bir-birinə bu qədər dəstək verən ikinci ölkələr yoxdur. Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı, birliyi bu gün ən yüksək zirvədədir. Bildirilib ki, təməli 2017-ci il aprelin 3-də Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə qoyulan Rizə-Artvin Hava Limanı Türkiyədə Ordu-Giresun aeroportundan sonra dənizin doldurulması yolu ilə inşa edildiyi ikinci, dünyada isə beşinci hava limanıdır. Rizə şəhərinə 34, Artvin şəhərinə isə 125 kilometr məsafədə yerləşən aeroport Türkiyənin 58-ci hava limanıdır. Bu hava limanının tikintisi üçün dəniz sahəsinə ümumilikdə 100 milyon ton daşın tökülməsi ilə suyun qurudulmasi və möhkəmləndirmə işləri aparılıb. Rizə-Artvin Hava Limanı ildə təxminən 3 milyon sərnişinə xidmət edəcək. Müasir tipli böyük təyyarələri qəbul etmək imkanında olan yeni hava limanı müasir standartlara tam uyğundur. Yeni hava limanı dənizə paralel tikilmiş 3045 metr uzunluğunda uçuş-enmə zolağına malikdir.

"Hürriyət" qəzetinin "Dəniz üzərində ikinci qürur" başlıqlı xəbərində deyilir ki, yeni tikilən hava limanı haqqında oxuculara məlumat verilir. Eyni zamanda qeyd edilib ki, İlham Əliyevin bu möhtəşəm layihənin açılış mərasimində iştirakı Azərbaycanla Türkiyə arasında müxtəlif sahələrdə yüksək səviyyədə qurulduğunun, tərəflərin mühüm əhəmiyyət kəsb edən maraqlar ətrafında hər zaman bir-birini müdafiə etməyə hazır olduqlarının bariz təcəssümüdür.

"Sabah" qəzeti "Qara dənizin qüruru" başlıqlı xəbərində İlham Əliyevin fikirlərinə geniş yer verərək vurğulayır ki, Türkiyə-Azərbaycan qardaşlığı səmimi əməkdaşlığa söykənir: "Mən bu gün qardaşımın məmləkətindəyəm və demək olar ki, öz məmləkətimdəyəm. Rizə Türk dünyasına böyük lider və mənim qardaşım Rəcəb Tayyib Ərdoğanı bəxş etmişdir. Bütün Türk dünyası sizinlə fəxr edir".

"Aydınlıq" qəzetində "İlk qonaq Əliyevdir" sərlövhəli məqalədə qeyd edilib ki, Azərbaycanla Türkiyəni sevən insanlar qardaş ölkədə inkişaf proseslərini çox böyük sevinclə qarşılayırlar: "Biz bütün məsələlərdə bir yerdəyik. Bu gün dünya miqyasında ikinci belə ölkələr tapılmaz ki, bir-birinə bu qədər yaxın olsun. Həm etnik köklər, mədəniyyət, tarix və həm də ortaq maraqlar baxımından da biz daim bir yerdəyik".

"Yeni Şafak" qəzeti "Havada yüksəlişin simvolu" başlıqlı xəbəri manşetdən verib. Deyilir ki, dünyada bir-birinə yaxın olan, bir-birinə bu qədər dəstək verən ikinci ölkələr yoxdur: "Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı, birliyi bu gün ən yüksək zirvədədir. Azərbaycan Prezidenti Türkiyənin ən yaxın və səmimi dostudur. Dünya liderləri arasında Azərbaycan Prezidenti qədər Türkiyənin sevincinə və kədərinə şərik olan ölkə başçısı yoxdur".

"Türkiyə" qəzetinin "Dağlar və dənizlər bizi durdura bilməz" başlıqlı xəbərində yazılır ki, Türkiyə-Azərbaycan qardaşlığı səmimi əməkdaşlığa söykənir. Bu, əsl qardaşlıq, real əməkdaşlıq nümunəsi olmaqla yanaşı, həm də qarşılıqlı münasibətləri daha da möhkəmləndirir, dünya miqyasında qardaşlıq əlaqələrinin nüfuzunun daha da yüksəlməsinə əlavə zəmin yaradır. Naşr məqaləyə İlham Əliyevin "Mən ilk dəfədir ki, Rizədəyəm. Bu diyar haqqında çox eşitmişəm. Təyyarə ilə gələrkən pəncərədən bu gözəl mənzərəni seyr edərkən və artıq buradan seyr edərkən əziz qardaşıma dedim ki, bu yer cənnətə bənzəyir. Rizənin, Artvinin, Qara dəniz bölgəsinin gözəl, füsunkar təbiəti böyük sərvətdir, amma ən böyük sərvət bu bölgənin insanlarıdır - mərd, vətənpərvər, döyüşkən, Türkiyə Cümhuriyyətinin keşiyində duran insanlardır. Eşq olsun bu insanlara!" fikirləri ilə yekun vurub.

Qəzetlərdən "Milat"ın "Qara dənizdə böyük əsər", "Karar"ın "Təyyarələr boş enməsin", "Posta"nın "Türkülər artıq qovuşma üçün səslənəcək", "Türkgün"ün "Türkiyənin qüruru", "Yeni birlik"in "Türkiyə ilə müttəfiqik", "Yeni akit"in "Xidmət əzminin qarşısında heç kim dayana bilməz", "Diriliş Postası"nın "Rizə cənnətə bənzəyir", televiziya kanallarından "TRT Haber" "Əliyev Rizədə", "Türkiyə ilə müttəfiqik", "Qardaşım da rizəli", saytlardan "haberler.com"un "Bura cənnətə bənzəyir", "sosyaltv.com.tr"nin "Ərdoğan və Əliyevdən mesajlar" və s. kimi başlıqlı xəbərlərlə Azərbaycan Prezidentinin Türkiyəyə səfərinin vacibliyini diqqətə çatdırıblar. Bildirilib ki, Azərbaycan-Türkiyə münasibətləri zaman keçdikcə daha da möhkəmlənir, tarixin bütün sınaqlarından daha böyük uğurla çıxır.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*









































































## Azərbaycan-Türkiyə münasibətləri ayrılmaz tarixi birlik və qardaşlıq nümunəsidir



"Azərbaycan-Türkiyə əlaqələri davamlı olaraq yüksələn xətlə inkişaf etməkdədir, münasibətlərimizdə gündən-günə yeni parlaq səhifələr açılır. Siyasi, iqtisadi-ticarət əlaqələri, enerji, mədəniyyət, təhsil sahəsindəki əməkdaşlığımız maksimum səviyyəyə çatıb. Əlaqələrimizin bu səviyyəyə çatması, təbii ki, hər iki ölkənin dövlət başçılarının xüsusi xidmətləri sayəsindədir. Xatırladım ki, möhtərəm Prezidentimiz İlham Əliyev müxtəlif beynəlxalq tədbirlərdə Türkiyəyə birmənalı dəstəyini ifadə edir. Eyni münasibət qardaş ölkənin lideri Rəcəb Tayyib Ərdoğan tərəfindən də sərgilənir. Bu, dövlətlərimiz və xalqlarımız arasında mövcud olan həmrəyliyin və birliyin təcəssümüdür".

Bu fikirləri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib. Onun sözlərinə görə, Azərbaycanla Türkiyənin əməkdaşlıq əlaqələri unikal müttəfiqliyin bariz nümunəsidir: "Münasibətlərimizin daha da dərinləşməsində ötən il iyunun 15-də imzalanmış Şuşa Bəyannaməsinin xüsusi rolunu qeyd etmək istərdim. Bəyannamədəki bütün müddəalar keyfiyyətcə daha yüksək işbirliyinin təminatı üçün əlverişli imkan yaradır. Vətən müharibəsi dövründə qardaş ölkənin mənəvi və diplomatik dəstəyini unutmaq olmaz. Əks-hücum əməliyyatları başlayan ilk saatlardan cənab Rəcəb Tayyib Ərdoğan başda olmaqla bütün Türk xalqının bizi dəstəkləməsi sözün həqiqi mənasında təmənnasız qardaşlığın böyük təntənəsi idi. Türkiyənin bütün dövlət strukturları Azərbaycanın qələbəsi üçün bütün sferalarda böyük əzmkarlıq göstərdilər. Nə qədər beynəlxalq təzyiqlər olsa da, Türkiyə qardaşlıq dəstəyi mövqeyindən geri çəkilmədi. Bu, tarixə düşmüş böyük qardaşlığın əyani əlamətidir".

Dövlət başçılarının qarşılıqlı səfərlərini xatırladan Milli Məclisin deputatı qeyd edib ki, Azərbaycan və Türkiyə şad gündə də, dar gündə də hər zaman bir-birinin yanındadır: "Cənab Rəcəb Tayyib Ərdoğanın 2020-ci il dekabrın 10-da keçirilmiş Zəfər paradında iştirak etməsi, işğaldan azad olunmuş Azərbaycan ərazilərinə səfər etməsi, həmçinin Füzuli Beynəlxalq Hava Limanının açılışına qatılması dediklərimizin bir daha təsdiqidir. Və bu münasibətlər bütün dünyaya nümunə olacaq səviyyədədir. Yeri gəlmişkən, bu il mayın 14-də Türkiyədə Rizə-Artvin Hava Limanının açılış mərasimi keçirildi. Belə bir mötəbər tədbirdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Azərbaycan Prezidentinin iştirak etməsi, orada çıxış edərək hava limanının işinə uğurlar arzulaması münasibətlərimizin inkişafı istiqamətində mühüm hadisələrdən biri kimi dəyərləndirirəm. Tədbirdə iki ölkə arasındakı münasibətlərin səviyyəsindən danışan dövlətimizin başçısı cənab İlham Əliyev Türkiyənin iqtisadiyyatına, o cümlədən turizm sahəsindəki yeni layihələrin həyata keçirilməsinə böyük töhfələr verəcək Rizə-Artvin Hava Limanının açılışında türk qardaşlarımızla bərabər olmağından məmnunluğunu ifadə etdi. İnanırıq ki, reallaşdırılan bütün bu səfərlər, görülən işlər əlaqələrimizi daha da dərinləşdirəcək, əməkdaşlığımızı möhkəmləndirəcək".

*"Azərbaycan"*



# Küləyə qalib gəl

## "Bakı Marafonu-2022"



















**Mayın 15-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə 5-ci Bakı marafonu keçirilib.**

AZƏRTAC xəbər verir ki, "Küləyə qalib gəl" şüarı altında keçirilən "Bakı Marafonu-2022"də 15 minədək iştirakçı qeydiyyatdan keçib. Marafonda iştirak üçün Azərbaycan vətəndaşları ilə yanaşı, ölkəmizdə yaşayan, çalışan əcnəbilər, eləcə də bir sıra ölkələrdən nümayəndələr də müraciət ediblər. Qeydiyyatdan keçənlər arasında ABŞ, Almaniya, BƏƏ, Böyük Britaniya, Çin, Fransa, Kamerun, Nigeriya, Qazaxıstan, Rusiya, Türkiyə, Ukrayna, Uqanda və digər ölkələrdən iştirakçılar olublar.

Bakı marafonu bu il fərqli marşrutda təşkil edilib. Yarışın start nöqtəsi ilə yanaşı, finişi də Dövlət Bayrağı Meydanında olub. İyirmi bir kilometrlik məsafəni əhatə edən marafonda iştirakçılar Dövlət Bayrağı Meydanı - Dənizkənarı Bulvar - Bakı Beynəlxalq Dəniz Vağzalı - Neftçilər prospekti - Bakı Ağ Şəhər bulvarı - Xəqani Rüstəmov küçəsi - Bakı Ağ Şəhər bulvarı, 8 Noyabr prospekti, Yusif Səfərov küçəsinin bir hissəsi - Afiyəddin Cəlilov və Üzeyir Hacıbəyli küçələrinin kəsişməsi, Cavanşir körpüsündən keçməklə Üzeyir Hacıbəyli küçəsi - Neftçilər prospekti (Hökumət Evi, Muzey Mərkəzi, Kukla Teatrı, Qız qalası, Azneft dairəsi), Bakı Funikulyoru, Bayıl dairəsi, Bibiheybət yolu (Su İdmanı Sarayı) və Dənizkənarı bulvar boyunca (Su İdmanı Sarayının arxası, Bakı Kristal Zalı) - Dövlət Bayrağı Meydanı marşrutu üzrə yürüş ediblər.

Qeyd edək ki, 2016-cı ildən təşkil olunan Bakı marafonu idmanın inkişafına dəstək, sağlam həyat tərzinin təbliği məqsədi daşıyır. "Bakı Marafonu-2022"də daun sindromlu və fiziki məhdudiyyətlı şəxslər də iştirak ediblər. Yarış zamanı ilk start daun sindromlu şəxslər, daha sonra isə fiziki məhdudiyyətli şəxslər üçün verilib. Üçüncü start isə ümumi iştirakçılar üçün olub.

Marafonun qalibləri iki kateqoriya üzrə seçilib. Kişilər arasında rusiyalı Rinas Axmadeyev birinci olub. Türkiyə təmsilçisi Ömər Alkan yarışı ikinci, çexiyalı Vladimir Marçik üçüncü pillədə başa vurublar.

Qadınların mübarizəsində Ukrayna atleti Valentina Veretskaya fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Türkiyəli Dilek Öztürk və Valentina Poltavskaya (Ukrayna) ilk üçlükdə yer alıblar.

Marafonun qalibinə 3000, ikinci yeri tutan iştirakçıya 2000, üçüncü yerin sahibinə isə 1000 manat məbləğində pul mükafatları verilib. Mükafatçılar həmçinin medal və sertifikatlarla təltif ediliblər. Finiş xəttini keçən ilk 1000 iştirakçı isə "Bakı Marafonu-2022"nin xüsusi medalları ilə təltif olunub. "Bakı Marafonu-2022"də yeni nominasiyalar - qadın və kişilər arasında 5 yaş kateqoriyası (18-29, 30-39, 40-49, 50-59, 60+) üzrə qaliblər seçilib.

Bundan əlavə, qadın və kişi kateqoriyaları üzrə tələbələr arasında finiş xəttini ilk keçən "Gənc ol" (Azercell), eləcə də "finiş xəttini ilk keçən ən yaşlı iştirakçı", "finiş xəttini ilk keçən korporativ iştirakçı", "ən kreativ kostyum" nominasiyalarında da mükafatlar təqdim olunub. Bütün marafon iştirakçılarına və yarışın təşkilində dəstək göstərən könüllülərə isə sertifikatlar verilib.

"Bakı Marafonu-2022"nin eksklüziv tərəfdaşı "Azercell Telekom" şirkətidir. Marafon Dənizkənarı Bulvar İdarəsi və "Regional İnkişaf" İctimai Birliyinin dəstəyi ilə təşkil olunub. Layihənin icrası Sport Marketing Group (SMG) şirkəti, sponsoru isə "Baltika 0" şirkətidir.

Marafon iştirakçıları, şəhər sakinləri və qonaqlar üçün Dövlət Bayrağı Meydanında əyləncə zonası da yaradılıb. Burada yarış ərzində müxtəlif əyləncə, konsert proqramları, yarışlar, idman tədbirləri keçirilib.

Qeyd edək ki, bu cür marafonlar indiyədək Barselona, Berlin, Boston, Çikaqo, İstanbul, London, Nyu York, Paris və digər şəhərlərdə təşkil olunub. Tam marafon yarışının məsafəsi 42 kilometr, yarı marafonun məsafəsi isə 21 kilometrdir. Layihə Azərbaycanda region sakinləri tərəfindən böyük maraqla qarşılandığından 2017-ci ildə Gəncə şəhərində də yarı marafon təşkil olunmuşdu.

## *Rinas AXMADEYEV:* "Çox şadam ki, Bakı marafonunda finiş xəttinə birinci çatdım"



"Bu il Bakı marafonunda qalib gəlmək istəyirdim. İstəyimə nail oldum və finişə birinci çatdım. Gələn il paytaxtınıza yenidən gələcəyəm. Bu idman növü ilə peşəkar səviyyədə məşğulam. Belə möhtəşəm yarış təşkil etdiyinə görə Heydər Əliyev Fonduna minnətdarlığımı bildirirəm".

Bu fikirləri AZƏRTAC-a müsahibəsində "Bakı Marafonu-2022"də kişilər arasında birinci yeri tutan rusiyalı iştirakçı Rinas Axmadeyev söyləyib.

Bakı haqqında danışan rusiyalı atlet bildirib ki, Azərbaycan paytaxtı çox gözəl şəhərdir. Buranı gəzmək üçün iki gün bəs etmir. Həqiqətən Bakı çox valehedicidir.

Xatırladaq ki, Azərbaycan vətəndaşları ilə yanaşı, ölkəmizdə yaşayıb çalışan əcnəbilər, eləcə də bir sıra digər ölkələrdən nümayəndələr marafonda iştirak üçün müraciət ediblər. Qeydiyyatdan keçənlər arasında Türkiyə, ABŞ, Almaniya, BƏƏ, Böyük Britaniya, Çin, Fransa, Kamerun, Nigeriya, Qazaxıstan, Rusiya, Ukrayna, Uqanda və digər ölkələrdən iştirakçılar var.

## *Valentina VERETSKAYA:* "Bakı marafonunda qadınlar arasında finişə birinci çatdığım üçün xoşbəxtəm"



"Bakıda keçirilən marafonda birinci dəfədir iştirak edirəm. Marafonda qalib gəldiyim üçün çox sevincliyəm. Ən böyük arzularımdan birinə nail oldum və finişə birinci çatdım. Növbəti illərdə bir daha paytaxtınıza gəlməyi planlaşdırıram. Bu idman növü ilə peşəkar səviyyədə məşğulam. Ötən il Albaniyada keçirilən marafonda da birinci yer tutmuşdum. 2019-cu ildə Almaniyada üçüncü olmuşdum. Bu yarışın təşkilində əməyi olanlara təşəkkür edirəm. Belə möhtəşəm yarışlar təşkil etdiyinə görə Heydər Əliyev Fonduna minnətdarlığımı bildirirəm".

Bu fikirləri AZƏRTAC-a müsahibəsində "Bakı Marafonu-2022"də qadınlar arasında yarışda birinci yeri tutan ukraynalı iştirakçı Valentina Veretskaya söyləyib.

V.Veretskaya həmçinin deyib: "Hələ ilk dəfə Bakıya gələndə buranı çox bəyənmişdim. Xalqınız çox qonaqpərvərdir, burada çoxlu dostlarım var. Bakı çox gözəldir, insanları isə mehribandır".

Xatırladaq ki, Azərbaycan vətəndaşları ilə yanaşı, ölkəmizdə yaşayıb çalışan əcnəbilər, eləcə də bir sıra digər ölkələrdən nümayəndələr marafonda iştirak üçün müraciət ediblər. Qeydiyyatdan keçənlər arasında Türkiyə, ABŞ, Almaniya, BƏƏ, Böyük Britaniya, Çin, Fransa, Kamerun, Nigeriya, Qazaxıstan, Rusiya, Ukrayna, Uqanda və digər ölkələrdən iştirakçılar var.

# Britaniya Kraliçasına Azərbaycan Prezidentinin hədiyyə etdiyi "Şöhrət" adlı Qarabağ atı təqdim olunub



**Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Kraliçası II Elizabet Azərbaycan Respublikasının Atçılıq Federasiyasının (ARAF) prezidenti Elçin Quliyevin rəhbərlik etdiyi nümayəndə heyətini Vindzor sarayında qəbul edib.**

ARAF-dan AZƏRTAC-a bildirilib ki, Kral ailəsi üzvlərinin şərəfinə ənənəvi təşkil edilən "Vindzor Kral Atçılıq Şousu"nda Azərbaycan təmsilçilərinin çıxışlarını hər zaman böyük maraqla izləyən Kraliçaya Azərbaycan Prezidenti İlham Əliyevin hədiyyəsi - "Şöhrət" adlı Qarabağ atı təqdim olunub.

Kraliçaya hədiyyə olunan at Vindzor qəsrinə gətirilərək", haqqında bütün məlumatların yer aldığı sertifikatla birlikdə yeni sahibinə təhvil verilib.

Daha sonra Azərbaycanın tanınmış heykəltəraşı Faiq Hacıyevin yaratdığı "Alxan" adlı Qarabağ, "Qalxan" adlı Dilbaz atlarının heykəlləri Kraliçaya hədiyyə olunub.

Kraliça II Elizabet hədiyyəyə görə təşəkkür edib, "Vindzor Kral Atçılıq Şousu" tədbirlərində ənənəvi iştiraka görə minnətdarlığını bildirib.

Qeyd edək ki, 1956-cı ildə SSRİ-nin rəhbəri Nikita Xruşşov Kraliça II Elizabetə "Zaman" adlı Qarabağ atı hədiyyə edib. Ancaq həmin at Vindzor sarayında təqdim olunmamışdı. Prezident İlham Əliyevin hədiyyəsi isə Vindzor sarayında Kraliça II Elizabetə təqdim edilib.

# Qarabağ atları britaniyalıların qəlbini fəth edib

**Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının kral ailəsinin üzvlərinin şərəfinə ənənəvi olaraq təşkil edilən "Vindzor Kral Atçılıq Şousu" mayın 12-də start götürüb. 2012-ci ildən etibarən ölkəmizin dəvət aldığı bu beynəlxalq atçılıq şousu qədim və unikal mədəniyyətimizin tanıdılması üçün son dərəcə əhəmiyyətli platformaya çevrilib, nümayəndə heyətimizin hər il nümayiş etdirdiyi bənzərsiz şou-proqramlar və performanslar bu möhtəşəm tədbirin ayrılmaz hissəsi kimi qəbul edilib.**









Dövlət Sərhəd Xidmətinin Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, milli sərvətimiz olan Qarabağ atlarının qorunub saxlanılmasına və məşhurlaşdırılmasına Azərbaycan Prezidenti İlham Əliyevin ali dəstəyi sayəsində son illər ərzində milli at cinslərimizin Azərbaycan brendi kimi dünyada tanıdılması istiqamətində əhəmiyyətli işlər görülür. Bu tədbirlər sırasında "Vindzor Kral Atçılıq Şousu"nda Qarabağ atlarının füsunkar gözəlliyinin nümayiş etdirilməsi xüsusi yer tutur.

Bu il keçirilən "Vindzor Kral Atçılıq Şousu"nda ölkəmizi növbəti dəfə Dövlət Sərhəd Xidmətinin süvarilər dəstəsi və rəqs ansamblı təmsil edib, artıq ənənəvi olaraq çıxışları ilə hər kəsi valeh etməyi, hər bir tamaşaçını heyrətləndirməyi bacarıblar. Təmsilçilərimizin milli geyimlərimizdə çıxışları xüsusilə fərqlənib, çoxsaylı tamaşaçı kütləsinin xüsusi rəğbətini qazanıb.

Cari ildə Kraliça II Yelizavetanın taxta çıxmasının 70-ci ildönümünə həsr olunmuş bu tədbir üçün nümayəndə heyətimiz tərəfindən xüsusi olaraq "Odlar Yurdu" adlı şou-kompozisiya hazırlanıb. Azərbaycan xalqının çoxsaylı maddi və mənəvi sərvətlərini ifadə edən bu kompozisiyanın əsasını artıq Vindzor tamaşaçılarına çox yaxşı tanış olan, burada özünə heyranlar ordusu qazanıb, çılğınlığı və gözəlliyi ilə seçilən Qarabağ atları, eləcə də zərif Azərbaycan rəqsləri və ecazkar milli musiqimiz təşkil edib.

Heydər Əliyev Fondunun dəstəyi, Azərbaycan Respublikası Atçılıq Federasiyasının təşkilatçılığı ilə hazırlanmış şou-kompozisiyanın quruluşçu rejissoru - Azərbaycanın Əməkdar artisti Nicat Kazımov, xoreoqrafı - Əməkdar artist Fərid İbrahimovdur.

Milli musiqi alətlərimiz tütək, zurna, balabanda ifa olunan "Qarabağ cəngisi"nin bənzərsiz sədalarından, "Sərhədçi" rəqs ansamblının hərarətli rəqslərindən, Dövlət Sərhəd Xidmətinin süvarilər dəstəsinin Qarabağ atları üzərində igidlik və hünər nümunələrindən, alov püskürənlərin qeyri-adi perfomanslarından ibarət şou-kompozisiya Böyük Britaniya tamaşaçısını, sözün əsl mənasında, ovsunlayıb. Altı dəqiqə davam edən şou müddətində süvarilərimizin başları üzərində Azərbaycan və Böyük Britaniyanın dövlət bayraqlarını dalğalandırmaları diqqəti xüsusi cəlb edib.

Şou-proqram tədbir iştirakçıları tərəfindən böyük coşqu ilə qarşılanıb, böyük tamaşaçı kütləsinin zövqünü oxşayıb, tamaşaçılar ayağa qalxaraq təmsilçilərimizi sürəklə alqışlayıb.






QARABAĞ
dirçəliş yolundadır






# Bu yollar Zəngəzur dəhlizinə gedir



## Horadiz-Zəngilan-Ağbənd dəmir yolu xətti və Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu qlobal nəqliyyat-tranzit qovşağın səmərəli həlqəsinə çevriləcək

**Böyük tikinti-quruculuq meydanına çevrilən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında reallaşdırılan müxtəlif istiqamətli layihələrin icra prosesi sürətlə davam edir. Prioritet məsələlərdən biri də Zəngəzur dəhlizinin açılması istiqamətində görülən işlərdir.**

Azərbaycan bu dəhliz üzərindəki hava xəttindən artıq demək olar ki, çoxdan istifadə edir. İndi əsas məsələ quru yolla - dəmir yolu xəttinin və avtomobil yolunun istifadəyə verilməsidir.

Bu istiqamətdə də 2 layihə reallaşdırılır - Horadiz-Zəngilan-Ağbənd dəmir yolu xətti və Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu.

### 8 stansiya, 3 tunel, 41 körpü...

Bu layihələrlə Azərbaycan ilk növbədə 10 noyabr bəyanatına sadiqliyini dünyaya nümayiş etdirir. Həmçinin Zəngəzur dəhlizinin gerçəkləşdirilməsi ilə regionda yeni reallıqların, ermənilərin də yararlanacağı iqtisadi inkişafın təməllərini qoyur. Müzəffər Ali Baş Komandan İlham Əliyev uzaqgörən siyasəti ilə sadəcə iki ölkənin deyil, regionda marağı olan başqa ölkələrin də iqtisadi imkanlarına müsbət təsir göstərəcək layihəni reallaşdırır.

Ümumi uzunluğu 110,4 kilometr və 8 stansiyadan (Horadiz, Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Mincivan, Bartaz və Ağbənd) ibarət olan Horadiz-Zəngilan-Ağbənd dəmir yolu xətti gələn il istismara veriləcək. İlham Əliyev Zəngəzur dəhlizinin açılmasının zəruriliyi haqqında deyib ki, dəmir yolunun inşası sürətlə aparılır və 2023-cü ildə layihə tam başa çatacaq.

Ümumiyyətlə, dəhlizin bir parçası olan dəmir yolu xətti layihəsinin birinci mərhələsi üzrə nəzərdə tutulan tikinti işlərinin böyük hissəsi tamamlanıb. Tikinti işləri 3 mərhələdə həyata keçirilir. Birinci mərhələ Horadiz, Mərcanlı, Mahmudlu stansiyalarını əhatə etməklə 30 km, ikinci mərhələ Soltanlı, Qumlaq stansiyalarını əhatə etməklə 55 km, üçüncü mərhələ isə Mincivan, Bartaz və Ağbənd stansiyalarını əhatə etməklə 25,4 km təşkil edir.

Layihə çərçivəsində 8 stansiya, 3 tunel, 41 körpü, 3 qalereya, 4 yolötürücü və ümumilikdə 300-ə yaxın süni mühəndis qurğusunun tikintisi planlaşdırılır.







Bu dəmir yolunun strateji əhəmiyyəti olduqca böyükdür. Çünki bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad olunmuş torpaqlara gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq və Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasını təmin edəcək. Ümumiyyətlə isə, Horadiz-Zəngilan-Ağbənd dəmir yolu istər Azərbaycan, istərsə də region ölkələri üçün böyük strateji önəm daşıyır.

Dəhliz uzun illər blokadada qalmış Naxçıvan Muxtar Respublikasını bu ağır şəraitdən çıxarmaqla yanaşı, xalqımızın 101 ildən sonra tarixi ərazisi olan qədim Zəngəzur torpağına yenidən qayıdışını da təmin edəcək. Eyni zamanda Rusiya-Türkiyə, Rusiya-İran, Rusiya-Ermənistan arasında birbaşa dəmir yolu əlaqəsi qurulacaq ki, bu da bölgədə strateji, iqtisadi və siyasi əlaqələrin yaranmasına böyük töhfə verə bilər. Eyni zamanda Azərbaycan və Türkiyə arasında Bakı-Ceyhan-Qars dəmir yolu ilə yanaşı, ikinci dəmir yolu xətti də olacaq. Ən önəmlisi isə, bu dəmir yolu xətti gələcəkdə Azərbaycandan keçməklə Cənubi Avropa ilə Asiyanı birləşdirən layihəyə çevriləcək. Bu da öz növbəsində Qarabağın gələcəkdə iqtisadi potensialına böyük töhfə verəcək.

### Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikintisi sürətlə gedir

Ötən il oktyabr ayının 26-da İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birlikdə təməlini qoyduğu Zəngəzur dəhlizinin bir parçası olan Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikintisi də sürətlə davam edir.

Uuzunluğu 123,6 km olan bu yol 4-6 hərəkət zolaqlıdır. Tikinti işlərinin 2024-ci ildə başa çatdırılması nəzərdə tutulur.

Avtomobil yolu başlanğıcını Füzulinin Əhmədbəyli kəndindən götürməklə layihələndirilib və I texniki dərəcəyə uyğun inşa edilir. Yolun ilk 77 km-lik hissəsinin 6, qalan 46,6 km-lik hissəsinin isə 4 hərəkət zolaqlı olması nəzərdə tutulub. Hərəkət zolaqlarına uyğun yol yatağının eni müvafiq olaraq 29,5 və 21,5 metr təşkil edir.

Avtomobil Yolları Dövlət Agentliyindən qəzetimizə verilən məlumata görə, yolboyu layihəyə uyğun ümumi uzunluğu 6 km təşkil edən və şərti olaraq T1, T2 və T3 adlandırılan 3 avtomobil tunelinin inşası aparılır. Uzunluğu 1019 metr təşkil edən T1 tuneli üzrə artıq qazma işləri yekunlaşıb, hazırda beton işləri icra olunur. Uzunluğu 1810 metr təşkil edən T2 tuneli üzrə 450 metr, uzunluğu 3171 metr təşkil edən T3 tunelinin isə 500 metr hissəsində qazma işləri aparılıb. Hazırda sözügedən tunellərdə qazma işləri partlatma və qırıcı üsulları ilə davam etdirilir. Eyni zamanda qaya qruntlardan ibarət hissələrin kənarlaşdırılması həyata keçirilir.

Yol boyunca 15 avtomobil körpüsü, 5 yolötürücü, 54 yeraltı keçidin inşası da nəzərdə tutulub ki, bu çərçivədə hazırda 14 körpü, 3 yolötürücü, 38 yeraltı keçidin tikintisi aparılır. Suların ötürülməsini təmin etmək məqsədilə layihə üzrə 306 dairəvi boru və 120 düzbucaqlı su keçidlərinin inşası yekunlaşıb. Kommunikasiya xətləri üçün nəzərdə tutulan 60 ehtiyat keçidindən 15 keçidin inşası bitib, 6 keçidin tikintisi isə davam edir.

Hazırda avtomobil yolunun ilk 110 kilometrlik hissəsində torpaq işləri də icra edilir. Belə ki, yolun genişləndirilərək profilə salınması və I texniki dərəcəyə uyğun yeni torpaq yatağının inşası işləri, paralel olaraq asfalt örtüyünün tikintisi həyata keçirilir.

Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun bir hissəsi olmaqla, Zəngilanı Azərbaycanın digər rayonları və Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək baxımından çox böyük əhəmiyyətə malikdir.

Bir sözlə, bu dəhlizin reallaşması ilə türkdilli dövlətlərin inteqrasiyasının sürətləndirilməsi, qərblə şərq, şimalla cənub arasındakı yükdaşımaların intensivliyinin artırılması, beynəlxalq ticarət əməliyyatlarının genişləndirilməsi, nəqliyyat və logistika sektorunun əhəmiyyətli səviyyədə inkişaf etdirilməsi sayəsində ölkəmizin siyasi və iqtisadi qüdrətinin dəfələrlə artmasına real potensial formalaşacaq.

*Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"*

# Qədim Füzulinin yeni günləri başlayır



## Görülən işlər işğaldan azad olmuş rayona təzə həyat bəxş edəcək

**Qarabağın və Şərqi Zəngəzurun hər tərəfində olduğu kimi, Füzuli rayonunda da geniş quruculuq işləri gedir. Füzuli şəhəri, ümumiyyətlə, 50 min sakin üçün planlaşdırılır. Yəni 2040-cı ilə o, 50 min nəfərlik bir şəhər olacaq. Füzulinin perspektivli sabahının təməli isə bu gün qoyulur.**

Prezident İlham Əliyevin bölgəyə hər səfəri zamanı burada yeni layihələrə start verilir, yaxud yeni obyektlərin açılışı olur. Füzuli Beynəlxalq Hava Limanı artıq istifadəyə verilib və regionun inkişafına xidmət edir. Rayonun Dövlətyarlı kəndində isə "ağıllı kənd" layihəsi həyata keçirilir. Plana görə, şəhərin mərkəzi hissəsində memorial kompleks yaradılacaq. Burada eləcə də İşğal muzeyi və Zəfər parkı salınacaq. Yüksək bir məkan Bayraq meydanı üçün ayrılacaq. Çoxmənzilli binalar inşa ediləcək. Daha sonra həyətyanı bağ sahələri olan fərdi evlər tikiləcək. Şimal hissədən nəqliyyat dəhlizi, avtomobil və dəmir yolları çəkiləcək. Bir sözlə, görüləcək işlər çoxdur və onlar mərhələlərlə gerçəkləşir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva cari il mayın 10-da bu rayonda səfərdə olarkən yeni sosial obyektlərin, infrastrukturun tikintisinə xeyir-dua veriblər. Füzuli şəhərində inşa olunacaq peşə liseyinin təməli qoyulub.

Məlum olduğu kimi, Azərbaycanda peşə təhsili sisteminin müasirləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Peşə təhsilinin inkişaf etdirilməsi prioritet istiqamət kimi müəyyən olunub. Paytaxtda, eləcə də bölgələrdə yeni peşə təhsili müəssisələri qurulur. Bunlardan biri də Füzuli Peşə Liseyi olacaq.

Liseyin ərazisi 3,2 hektar sahəni əhatə edəcək. Kompleksdə tədris, laboratoriya təcrübələri, idman binaları və meydançası yaradılacaq. Burada həmçinin avtomobil təmiri emalatxanası, avadanlıq və texnika, təsərrüfat anbarları, təsərrüfat qurğusu, praktik təlimlər qurğusu da inşa ediləcək. Kompleksin elektrik enerjisi ilə fasiləsiz təminatı üçün transformator yarımstansiyası quraşdırılacaq. İnşaat işlərinin gedişində ətrafda yaşıllıq zolaqları yaradılacaq. Yaşıllıqlar kompleksin ərazisinin 44 faizə yaxın sahəsini təşkil edəcək. Buradakı idman meydançasının sahəsi isə 540 kvadratmetr olacaq.

Peşə liseyi ildə 800-yə yaxın tələbə qəbul etməklə yanaşı, 1000-dək tələbə üçün kurslar və təhsil proqramları təmin edə biləcək.

Gələcəkdə Füzulidə bir sıra səhiyyə müəssisələrinin tikilməsi də nəzərdə tutulub. Belə ki, rayonda Gigiyena və Epidemiologiya Mərkəzi, Təcili Tibbi Yardım Stansiyası, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin binası inşa olunacaq.

Mayın 10-da isə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 180 çarpayılıq Füzuli Rayon Mərkəzi Xəstəxanasının təməlinin qoyulması mərasimində iştirak ediblər. Bu tibb müəssisəsində əsasən üç bölmənin - inzibati, stasionar və ambulator xidmət bölmələrinin yaradılması nəzərdə tutulub. Stasionar xidmət bölməsindəki qəbul mərkəzində 40 çarpayılıq terapiya, o cümlədən kardiologiya və nevrologiya şöbələri fəaliyyət göstərəcək. Xəstəxanada həmçinin cərrahiyyə, travmatologiya-ortopediya, LOR, əməliyyat bloku, pediatriya, doğum, ginekologiya, yoluxucu xəstəliklər, anesteziologiya-reanimasiya və hemodializ şöbələri yaradılacaq. Ambulator xidmət hissəsi isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələrindən, klinik diaqnostika laboratoriyasından və aptekdən ibarət olacaq.

Müalicə ocağında maqnit rezonans tomoqrafiya və digər ən müasir tibbi avadanlıqlar quraşdırılacaq. Xəstəxana binasının zirzəmisi zəruri hallarda sığınacaq və hərbi hospital təyinatına malik strukturda inşa ediləcək.

Hazırda bölgədə düşmənin ekoloji sistemə vurduğu zərərin nəticələri də aradan qaldırılır. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuliyə səfərləri çərçivəsində şəhərdə yeni yaradılacaq mərkəzi park kompleksinin ərazisində ağac əkdilər.

İşğaldan azad olunmuş digər ərazilərimiz kimi, Füzuli də minalardan təmizlənib təhlükəsiz vəziyyətə çatdırıldıqca ekoloji tarazlığın bərpası istiqamətində işlər aparılır. O cümlədən erməni vandallarının məhv etdiyi yaşıllıq massivlərində ağaclar əkilir. Füzulidə yeni yaradılacaq park kompleksi də şəhərdə ekoloji tarazlığın qorunması işinə mühüm töhfə verəcək.

Dövlət başçısı keçən il oktyabrın 17-də Füzuli rayonu ictimaiyyətinin nümayəndələri ilə görüşdə demişdir: "Füzuliyə həyat qayıdır və qayıdacaq. Əminəm ki, maksimum qısa müddət ərzində Füzuli şəhəri də, rayonun kəndləri də çiçəklənəcək". Rayonda vüsət alan işlər məhz həmin günü yaxınlaşdırır.

*Flora SADIQLI, "Azərbaycan"*

# Daxili İşlər Nazirliyindən növbəti dəstək aksiyası

## İşğaldan azad olunan ərazilərin bərpasına 200 min manat ianə edilib

**İşğaldan azad olunan ərazilərin bərpası və yenidən qurulması tədbirlərinə dəstək göstərilməsi məqsədilə Daxili İşlər Nazirliyi tərəfindən Qarabağ Dirçəliş Fonduna 200 min manat məbləğində ianə edilib.**

Qarabağ Dirçəliş Fondu bu nəcib addım üçün Daxili İşlər Nazirliyinə təşəkkür edib və hər kəsi işğaldan azad olunan ərazilərə dəyən zərərin aradan qaldırılması, bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində görülən işlərə dəstək olmağa çağırıb.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı şanlı qələbə Qarabağın uzun illər davam edən işğalına son qoyub. Azərbaycan dövlətinin tarixində əbədi qalacaq bu zəfər ölkəmizdə həmrəyliyin və birliyin möhkəmlənməsində yeni reallıq yaradıb. Həmvətənlərimizin etdiyi ianələr işğaldan azad edilən ərazilərin bərpası və yenidən qurulması, eyni zamanda Ermənistanın təcavüzü nəticəsində evlərini tərk etmiş 1 milyondan çox azərbaycanlı məcburi köçkünün öz doğma yurdlarına qayıtması prosesini sürətləndirməyə imkan yaradacaq.

İndiyədək minlərlə həmvətənimiz, yüzlərlə şirkət Qarabağın dirçəlişi kimi mühüm bir dəyər ətrafında birləşmək, bu istiqamətdə görülən işlərə dəstək olmaq məqsədilə birlik nümayiş etdirərək könüllülük prinsipi əsasında fonda ianə edib.

*Aydan XƏLİLOVA, "Azərbaycan"*

# Ankarada Azərbaycanın azad edilmiş bölgələrində aparılmış araşdırmanın nəticələrinə dair hesabat təqdim olunub

**Türkiyənin paytaxtı Ankara şəhərində İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Ombudsmanlar Assosiasiyasının "Azərbaycanın işğaldan azad edilmiş bölgələrində həyata keçirilmiş araşdırmanın nəticələrinə dair hesabat"ının təqdimatı keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyevanın rəhbərlik etdiyi nümayəndə heyətinin iştirakı ilə Türkiyənin Baş Ombudsman Aparatında keçirilən mərasimdə hesabat İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Ombudsmanlar Assosiasiyasının prezidenti, Türkiyənin Baş ombudsmanı Şərəf Malkoç tərəfindən açıqlanıb.

Türkiyənin Baş ombudsmanı Şərəf Malkoçun rəhbərliyi ilə dörd nəfərlik heyətin 2021-ci il sentyabrın 14-dən 19-dək işğaldan azad olunan Azərbaycan ərazilərinə səfəri əsasında hazırlanan sözügedən hesabat kitab şəklində nəşr olunub.

Baş ombudsman Şərəf Malkoçun ön söz müəllifliyi ilə hazırlanan kitab giriş, bölmələr və nəticədən ibarətdir.

Hesabatda təcavüzkar Ermənistanın ölkəmizə qarşı işğalçılıq siyasətinin acı nəticələri, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yenilməz Azərbaycan Ordusunun 44 günlük Vətən savaşında qazandığı rəşadətli qələbə, ərazilərimizin işğaldan azad edilməsindən sonra üzə çıxan və dünya ictimaiyyətinə təqdim olunan erməni vandalizminin izləri, məhv edilən yaşayış məskənləri, eləcə də dini-milli tarixi abidələr, məzarlıq və məscidlər barədə müfəssəl məlumat verilir. Təqdim olunan bütün faktlar maddi sübutlarla və orijinal fotolarla təsdiqini tapır.

Hesabat Türkiyənin Baş Ombudsman Aparatı və İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Ombudsmanlar Assosiyası tərəfindən hazırlanıb.

Təqdimatda çıxış edən İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Ombudsmanlar Assosiasiyasının prezidenti, Türkiyənin Baş ombudsmanı Şərəf Malkoç və Azərbaycan ombudsmanı Səbinə Əliyeva təqdim olunan beynəlxalq statuslu hesabatın əhəmiyyətli barədə geniş məlumat veriblər.

Qeyd edək ki, İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Ombudsmanlar Assosiasiyasının prezidenti, Türkiyənin Baş ombudsmanı Şərəf Malkoçun rəhbərlik etdiyi nümayəndə heyəti İkinci Qarabağ müharibəsi zamanı da Azərbaycana səfər edib, araşdırıcı missiya təcavüzkar Ermənistanın Gəncə və digər şəhərlərdə mülki əhaliyə qarşı törətdikləri insani cinayətləri sənədləşdirib və bu barədə beynəlxalq səviyyəli xüsusi hesabat hazırlayıb.






# *bp*-nin regional prezidenti Bakı Ali Neft Məktəbində olub

**bp şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz Bakı Ali Neft Məktəbində (BANM) olub, məktəbin kampusunda bp və tərəfdaşlarının BANM-ə hədiyyə etdiyi laboratoriyaya baş çəkib.**







Qonağı görməkdən məmnunluğunu ifadə edən BANM-in rektoru Elmar Qasımov bildirib ki, ali məktəb fəaliyyətə başlayandan bp şirkəti daim dəstəyini göstərib. BANM-lə bp arasındakı əməkdaşlığın ən yüksək səviyyədə olduğunu deyən rektor qeyd edib ki, bp ilə uğurlu əməkdaşlığın göstəricilərindən biri də hər il onlarca tələbənin bu şirkətdə təcrübə keçməsidir: "Hazırda bp-də kifayət qədər BANM məzunu çalışır. bp əməkdaşları BANM-də tədrisdə iştirak edir, bizim müəllimlər bp-nin layihələrinə qatılırlar. Ali məktəbimizə bp və tərəfdaşlarının göstərdiyi dəstəkdən çox məmnunuq".

BANM-də əmək bazarının tələblərinə uyğun ixtisaslarda kadrlar hazırlandığını bildirən rektor bərpaolunan enerji üzrə də kadr yetişdirilməsinin planlaşdırıldığını, Azərbaycanda bu sahədə ingilis və Azərbaycan dillərində yeganə dərsliyin ali məktəb tərəfindən dərc ediləcəyini vurğulayıb. Elmar Qasımov siqnal nüsxəni Qəri Counza təqdim edib.

Professor-müəllim heyəti və tələbələr qarşısında çıxış edən Qəri Counz BANM-in fəaliyyətini və bu tədris ocağı ilə sıx əməkdaşlığı yüksək qiymətləndirib, şirkətin Azərbaycanda fəaliyyətinin 30 illiyi münasibətilə və əməkdaşlığın inkişafına göstərilən dəstəyə görə ali məktəbin kollektivinə "Təşəkkürnamə" təqdim edib. Qeyd edilib ki, bu "Təşəkkürnamə" ilk olaraq BANM-ə təqdim olunur.

Bakı Ali Neft Məktəbinin ölkənin ən nüfuzlu ali təhsil müəssisələrindən olduğunu qeyd edən bp-nin regional prezidenti bildirib ki, burada tələbələr beynəlxalq standartlara uyğun təhsil alaraq peşəkar kadr kimi yetişirlər.

O, tələbələrə bp-nin Azərbaycandakı 30 illik fəaliyyəti, mühüm enerji layihələrinin operatoru olaraq həyata keçirdiyi işlər, enerjinin gələcəyi, gələcək trendlər, tələb edilən bacarıqlar barədə məlumat verib.

"Azəri-Çıraq-Günəşli", "Şahdəniz" və digər neft-qaz layihələrinin operatoru olaraq bp-nin Azərbaycanda 30 ildir layihələri təhlükəsiz və etibarlı şəkildə həyata keçirdiyini bildirən Qəri Counz işğaldan azad olunmuş ərazilərdə günəş enerjisinin tikintisi layihəsi, ümumilikdə Azərbaycanın bərpaolunan enerji mənbələri üzrə potensialı, bp-nin enerji siyasəti, bərpaolunan enerji üzrə peşəkar mütəxəssislər yetişdirilməsi üçün dərslik hazırlanmasına dəstək və "yaşıl enerji"yə keçiddə əməkdaşlıqdan danışıb, tələbələrə tövsiyələrini verib, onların suallarını cavablandırıb.

# TÜİB-in illik toplantısı keçirilib

## Toplantıda fəaliyyətinə yüksək qiymət verilən təşkilatın rəhbər heyəti seçilib

**Bakıda Türkiyə və Azərbaycan İş Adamları və Sənayeçilər İctimai Birliyinin (TÜİB) 5-ci dönəm seçkili ümumi yığıncağı keçirilib.**





Yığıncaqda Azərbaycan və Türkiyənin dövlət rəsmiləri - Türkiyə Prezidentinin Maliyyə Ofisinin rəhbəri Göksel Aşan, Azərbaycanın iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev, Azərbaycan Hesablama Palatasının sədri Vüqar Gülməmmədov, Türkiyənin əmək və sosial müdafiə nazirinin müavini Ertuğrul Soysal, Azərbaycanın əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev, Kiçik və Orta Biznesin İnkişafı üzrə Dövlət Agentliyinin (KOBİA) rəhbəri Orxan Məmmədov, Azərbaycandakı Türkiyə səfirliyinin nümaynədələri, millət vəkilləri, sahibkarlıq təşkilatlarının - ASK, ATİB, MÜSİAD rəhbərləri, iş adamları, idarəçilər və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Toplantıda Ümummilli Lider Heydər Əliyevin və Ulu Öndər Mustafa Kamal Atatürkün, eləcə də şəhidlərin xatirəsi yad olunub, hər iki ölkənin dövlət himnləri səsləndirilib.

Açılış nitqi ilə çıxış edən TÜİB sədri Hüseyin Büyükfırat başçılıq etdiyi təşkilatın fəaliyyəti barədə geniş məlumat verib. Bildirib ki, sıralarında Azərbaycanda fəaliyyət göstərən türk iş adamları, şirkətləri və idarəçilərini birləşdirən Türkiyə və Azərbaycan İş Adamları və Sənayeçilər İctimai Birliyi 2016-cı ildən fəaliyyətə başlayıb. Qeyd olunub ki, Azərbaycanın biznes cəmiyyətinin aktiv üzvünə çevrilmiş TÜİB-in üzvləri tikinti, istehsal, infrastruktur, qida sənayesi, ticarət, sənaye, xidmətlər, turizm, ictimai iaşə, məsləhət xidmətləri, tibb, əczaçılıq və digər sahələrdə fəaliyyət göstərərək ölkə iqtisadiyyatına və Azərbaycan-Türkiyə əlaqələrinə töhfə verirlər.

Məlumat verilib ki, TÜİB Türkiyə və Azərbaycan arasında biznes və iqtisadi əlaqələrin genişlənməsi, eləcə də Azərbaycana dəstəklə bağlı çoxsaylı ciddi layihələr reallaşdırmaqdadır. Sosial məsuliyyət tədbirlərinə toxunan H.Büyükfırat bildirib ki, Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi, qardaş Türkiyənin dəstəyi, şəhidlərimizin və qazilərimizin qəhrəmanlığı sayəsində torpaqlarımızın azad edilməsindən sonra TÜİB və tərəfdaşlarının "Tək millət, tək ürək" layihəsi çərçivəsində qazi və şəhid ailəsi üzvləri olan tələbələr Türkiyə universitetlərində pulsuz təhsil alır, "Qardaş ailə" layihəsi üzrə isə TÜİB üzvləri şəhid ailələrini ziyarət edib, onları dəstəkləyir.

Toplantıda çıxış edən Türkiyə Prezidentinin Maliyyə Ofisinin rəhbəri Göksel Aşan Türkiyə ilə Azərbaycan arasında münasibətlərin, o cümlədən təhlükəsizlik, sosial sahələrdə əlaqələrin yüksək səviyyədə olduğunu bildirib: "Hazırda qarşıda duran əsas məsələlər iqtisadi münasibətlərin daha da inkişaf etdirilməsi, iki ölkə iqtisadiyyatlarının inteqrasiya edilməsi, Azərbaycan və Türkiyənin 3-cü ölkələrə mal və xidmətlərin təqdim edilməsinə başlanmasıdır".

Azərbaycanın iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev isə Azərbaycan və Türkiyə arasında iqtisadi münasibətlərin yüksək səviyyədə olduğunu və daha da inkişaf etdiyini vurğulayıb: "Türkiyə Azərbaycanın ən çox xarici sərmayə yatırdığı ölkədir və bu sahədə ilk yeri tutur. Hazırda Azərbaycanın Türkiyəyə yatırdığı sərmayələrin məbləği 20 milyard dolları keçib. Öz növbəsində Türkiyə də Azərbaycanın qeyri-neft sektoruna yatırılan sərmayənin həcminə görə birincidir. İndiyədək türk şirkətləri Azərbaycanın qeyri-neft sektoruna 2,9 milyard dollar sərmayə yatırıb. Türkiyə Azərbaycanın ikinci ən böyük tərəfdaşıdır".

E.Əliyev həmçinin bildirib ki, hazırda Azərbaycanın işğaldan azad olunan ərazilərinin yenidən qurulmasında türk şirkətləri, o cümlədən iri holdinqlər aktiv iştirak edirlər. Azərbaycanda indiyədək 4800-ə yaxın türk şirkətinin qeydiyyatdan keçdiyini xatırladan nazir müavini TÜİB-in fəaliyyətinin əhəmiyyətini vurğulayıb: "Ölkələrimiz arasında iqtisadi əməkdaşlığın daha da inkişaf etdirilməsi, yeni təşəbbüslərin irəli sürülməsi üçün özəl sektor nümayəndələrinin və iş adamlarının təşkilatlandığı strukturların, o cümlədən Türkiyə və Azərbaycan İş Adamları və Sənayeçilər İctimai Birliyinin həyata keçirdiyi fəaliyyət çox önəmlidir".

Nazir müavini diqqətə çatdırıb ki, ölkələrimiz arasında imzalanmış preferensial ticarət sazişi bu əməkdaşlığın daha da inkişaf etməsinə imkan verir: "Eləcə də iki ölkənin əməkdaşlığı nəticəsində reallaşdırılan nəqliyyat və enerji layihələri Avrasiyanın enerji və nəqliyyat xəritəsini yenidən yaradır".

Tədbirdə çıxış edən digər natiqlər Azərbaycan və Türkiyə arasında sosial-iqtisadi əlaqələrin inkişafı, əhəmiyyəti, iki ölkənin biznes qurumlarının əməkdaşlığı barədə məlumat verərək, TÜİB-in fəaliyyətinə uğurlar arzu ediblər.

TÜİB-in ümumi yığıncağında qurumun rəhbərliyinə seçkilər keçirilib. Şəffaf və demokratik şəraitdə keçirilən seçkilərdə Hüseyin Büyükfırat yenidən Türkiyə və Azərbaycan İş Adamları və Sənayeçilər İctimai Birliyinin sədri seçilib. Savaş Uzan ("Azersun Holding"), Lokman Biter ("Makro 2000"), Ender Kavuk ("Asfarma"), Necmettin Taşbağ ("Kartaş MMC"), Ümit Hira ("Tekfen"), Selim Akbay (şəxsi üzv), Azər Mirzəyev ("Məmmədoğulları" QSC), Avni Demirci ("Alka-And" MMC), Əhəd Əsgərov ("Optimal Elektronika"), Günay Ağayeva ("İkra Logistika" MMC), Hakan Evsen ("Skylife travel"), Emrah Uçar ("Maqro Construction" MMC AR filialı), Mustafa Çelenk ("Axsis" MMC), Fərid Novruzi ("Novco" MMC) isə təşkilatın İdarə Heyətinin üzvləri seçiliblər.

Yığıncaqda TÜİB-in Nəzarət və Təftiş Komissiyası da formalaşıb. Tamer Tanrıverdi ("Tork Çelik Ltd"), Ramiz Əliyev ("Türk Amerikan Medikal") və Vüsal Xəlilov ("Mobil Group" MMC) komissiyanın üzvləri seçiliblər.

Seçkidən sonra toplantıda çıxış edən TÜİB rəhbəri Hüseyin Büyükfırat yeni seçilən üzvləri bir daha təbrik edərək onlara işlərində uğurlar arzulayıb. Əmin olduğunu bildirib ki, Türkiyə və Azərbaycan İş Adamları və Sənayeçilər İctimai Birliyi bundan sonra da ölkə iqtisadiyyatına və Azərbaycan-Türkiyə əlaqələrinə töhfə verməkdə davam edəcək.

*Səbuhi BAYRAMOV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

Jurnalist araşdırması



# Səhərdən axşama qədər işlə, axırı heç nə...

## Kuryerlərin sayı getdikcə artsa da, hüquqları qorunmur, əmək müqaviləsi bağlanılmır

**Son iki ildə dünyada baş verən qlobal pandemiya ilə əlaqədar məhdudiyyətlərin tətbiqi müəyyən mağazaların, obyektlərin fəaliyyətinin dayandırılması nəticəsində onlayn alış-verişə tələbatı artırdı. Ənənəvi fəaliyyətə icazə verilməsə də, iaşə obyektləri onlayn formada fəaliyyət göstərirdi.**

Bu müddət ərzində Azərbaycanda fəaliyyət göstərən "Wolt", "Bolt Food" kimi çatdırılma xidmətləri aktivləşdi. İşçi qüvvəsinin əsasını gənclər təşkil edən bu şirkətlərin kuryerləri məsafədən asılı olaraq velosiped və mopedlər vasitəsilə çatdırılma həyata keçirməyə başladılar və getdikcə daha da çoxaldılar. Amma apardığımız araşdırma nəticəsində bəlli oldu ki, kuryerlərin sayı getdikcə artsa da, bu sahədə ciddi boşluqlar, onların hüquqlarının pozulması, istifadə etdikləri nəqliyyat vasitəsinə görə təhlükəsizlik səbəbindən sürücülük vəsiqəsinin tələb olunmamasının zaman-zaman mübahisə doğurması kimi hallar mövcuddur.

### 100 manat depozit, 3 mövsümlük geyim, iki köynək

İlk olaraq Azərbaycanda kuryer fəaliyyəti ilə məşğul olanların hüquqlarının necə qorunduğunu araşdırdıq.

Məhz bu sahədə çalışan gənclərlə söhbətimiz zamanı bəlli oldu ki, onları narahat edən əsas məsələ tarif qiymətlərinin aşağı olmasıdır. Son vaxtlar qiymət artımlarını nəzərə alaraq yaz və yay aylarında tariflərin aşağı salınmasının əleyhinədirlər.

Üç ildir kuryer fəaliyyəti ilə məşğul olan Murad (şərti ad) əvvəl "Bolt Food", sonradan isə "Wolt"da çalışdığını qeyd edir. O, bildirir ki, aylıq gəlirləri təxminən 500-700 manat olur. "Wolt" şirkəti tərəfindən 100 manat depozitlə çanta, 3 mövsümlük geyim, iki köynək verilir. Həmin geyimləri sonda qaytardığın təqdirdə ödəniş geri qaytarılır. Əvvəllər isə bu təminatlar pulsuz olub. Həmçinin su keçirməyən şalvar və kaska götürdüyün halda hər biri üçün əlavə 15 manat ödəniş etməlisən. Kuryer qeyd edir ki, "Bolt Food"da isə təkcə daşıma çantası 70 manatdır. Təbii ki, digər əşyalar üçün də ödəniş etməlisən.

### Kuryerlərin əsas problemi - aşağı tariflər

İlkin (şərti ad) deyir ki, ölkədə müəyyən qiymət artımları olsa da, tariflərdə artım olmayıb. Vurğulayır ki, tariflər ölkə reallığına uyğunlaşdırılmayaraq daha da aşağı salınıb:

"Xüsusən yaz və yay aylarında tarifləri aşağı salırlar. Qışda isə tariflər yüksəlir. Bunun nə ilə əlaqədar olduğunu tam olaraq bilmirik. Qış aylarında işləmək çətin olduğu üçün işçi sayı daha az olur".

Hər çatdırılmaya görə ödəniş aldıqlarını deyən İlkin bildirir ki, onlar həmin məbləği aylıq maaş şəklində deyil, günlük alırlar. Bu məbləğlər həm kart, həm də nağd şəkildə verilir. Məsələn, günlük çatdırılmaların bəziləri karta köçürülür, müəyyən ödənişləri isə nağd şəkildə alırıq. Hər kilometr üçün 80 qəpik hesablanır. Tariflər minimum 1.60 AZN-dən başlayır, aylıq minimum qazanc 200-300 manat, normal gəlir isə 700-800 manat olur.





Ötən ay "Wolt" şirkətinin 100-dən çox işçisinin etirazı da bununla bağlı olub. Onlar maaşlarının az olmasına görə şirkətin mobil tətbiqini dondurmuşdu. Şirkətdən isə maaş artımı tələb edən işçilərə işləmək istəyən, növbədə gözləyən yüzlərlə insanın olduğu bildirilmişdi.

### Kuryerlərin əmək müqaviləsi ilə işləməsi vacibdir

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü Vüqar Bayramov qəzetimizə açıqlamasında bildirib ki, aparılan monitorinqlərə görə xidmət sektorunda əmək müqaviləsi ilə işləməyənlərin sayı heç də az deyil. Baxmayaraq ki, əmək bazarının leqallaşdırılması ilə bağlı işlər həyata keçirildi, müəyyən irəliləyişlər var. Bu istiqamətdə addımlar atılsa da, hələ qeyri-qanuni fəaliyyət göstərən, əmək müqaviləsi bağlamadan işləyən işçilərin sayı çoxdur.

Deputat qeyd edib ki, çatdırılma xidməti göstərən şirkətlərdə fəaliyyət göstərənlərin də əmək müqaviləsi və ya xidməti müqavilə ilə fəaliyyət göstərməsi olduqca vacibdir: "Ödənişlər mütəmadidirsə, o halda xidməti deyil, əmək müqaviləsi ilə işləməsinə ehtiyac var, çünki bu həm də əmək hüquqlarının qorunması baxımından lazımdır. Artıq postkarantin dövrüdür, indiki halda əmək bazarında leqallaşdırılmanın təşviq edilməsi, bu istiqamətdə işlərin gücləndirilməsi əhəmiyyətlidir. Bu həm əmək hüquqlarının daha yaxından qorunmasına, həm də dövlət büdcəsinə daxilolmalara birbaşa təsir göstərə bilər".







### Əmək hüquqları qorunmayan kuryerlər

Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının sədri Sahib Məmmədov qəzetimizə açıqlamasında bildirib ki, aqreqator rolu oynayan transmilli şirkətlərin Azərbaycanda təşkil etdiyi çatdırılma və taksi xidmətləri ilə bağlı 3 əsas problem var.

Onlar aqreqatordur və ölkəmizin qanunlarına əməl etmədən, heç bir investisiya qoymadan xidməti təşkil edirlər və buradan öz faizlərini götürürlər. Eyni zamanda işçilərlə əmək müqaviləsi bağlamırlar:

"Avropa İttifaq (Aİ) ölkələrində həm taksi şirkətlərində çalışanların, həm də kuryerliklə məşğul olanların əmək müqaviləsi yox idi, amma məsələ o qədər böyüdü ki, Aİ-nin bir çox ölkəsi artıq həmin aqreqatorları işçilərlə əmək müqaviləsi bağlamağa məcbur etdilər. Əmək müqaviləsi olduqda onlar bir neçə növ sığorta ilə əhatə olunurlar. Bura icbari dövlət sığortası, istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta, tibbi sığorta və işsizlikdən sığorta və üçüncü şəxslər qarşısında mülki məsuliyyət sığortası daxildir".

Sahib Məmmədov qeyd edib ki, əmək müqaviləsi olmadıqda, işçilərlə xidməti müqavilə imzalandıqda heç bir hal tənzimlənmir: "Onlar qəzaya uğrayıb sağlamlıqlarını itirəndə, həlak olanda, texnikalarına zərər dəyəndə, üçüncü şəxsə ziyan vuranda öhdəlikləri özləri qarşılamalı olurlar".



### İnhisarçılığa son qoyulmalıdır

Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının sədrinin sözlərinə görə, digər problemlərdən biri daşıyıcıların hərəkət iştirakçılarına və özlərinin təhlükəsizliyinə xələl gətirməsidir. Bununla şəhərdə hərəkətin intensiv təşkilinə mane olurlar.

Bundan başqa, xüsusən ərzaq daşıyıcıları tibbi yoxlamadan keçirilmədən işə qəbul olunurlar. Onların hansısa infeksion xəstəliyi, psixoloji problemləri ola bilər. Ərzaqla işləyənlər həm işə qəbul olunanda, həm də mütəmadi olaraq tibbi yoxlamadan keçməlidirlər. Eyni zamanda onların ərzaq daşıdıqları qutuların sanitar-gigiyenik tələblərə cavab verib-vermədiyi yoxlanılmalıdır. Bu problemlərin hamısını tənzimləmək lazımdır. İlk növbədə aqreqatorlar qarşısında vəzifə qoyulmalıdır ki, işçilərlə mütləq əmək müqaviləsi bağlasınlar və onlar bütün sığorta növləri ilə əhatə olunsun. Həmçinin kuryerlər tibbi yoxlamadan keçmədən xidmətə buraxılmasınlar.

Sahib Məmmədov vurğulayıb ki, işin xarakterinə görə sahibkar işçilərlə mülki hüquqi müqavilə də bağlaya bilməz. Onun sözlərinə görə, bu məsələdə haqsız rəqabət məsələsi də mühüm yer tutur, çünki bu şirkətlər bazarda 35 faizdən çox yer tuturlar, yəni monopolist sayılırlar. Məsələ ilə bağlı müvafiq qurumlar işə cəlb olunmalı, bir yerdə qərar verməlidirlər.

Bildirək ki, "Bolt Food" və "Wolt"un mobil tətbiqləri vasitəsilə sifariş verə və ödənişi həm onlayn, həm də nağd şəkildə edə bilərsiniz. Hazırda minimal sifarişin həcmi 6 manat, standart çatdırılma qiyməti isə 1.50 manat təşkil edir. Ümumilikdə 4 kilometr məsafəyə qədər çatdırılma tarifi 3 manatdır.

Sonda onu da vurğulayaq ki, "Wolt" mərkəzi Helsinkidə yerləşən qida çatdırılma platformasıdır. 2014-cü ildə Finlandiyanın Helsinki şəhərində on restoranla birlikdə fəaliyyətə başlayıb. Hazırda 23 ölkə və 180-dən çox şəhərdə fəaliyyət göstərir. Ötən ilin məlumatına görə, şirkətin 45 mindən çox ticarət tərəfdaşı, 90 min kuryer partnyoru var. 12 milyondan çox istifadəçi isə qeydiyyatdan keçib. "Wolt Azerbaijan" 4 şəhərdə fəaliyyət göstərir.



*Əsmər QARDAŞXANOVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# Yeni qərar yazılı KİV və nəşriyyatların fəaliyyətinə əlavə imkanlar verəcək

**Müdriklər deyiblər ki, əgər bir millətin mədəniyyətini öyrənmək istəyirsənsə, onun yolundan keç, əgər bir millətin xarakterini bilmək istəyirsənsə, onun mətbuatını oxu.**

Ölkəmizdə də öz dəstxəti, operativliyi ilə seçilən kifayət qədər çap və elektron informasiya vasitələri fəaliyyət göstərir. Ənənəvi sovet mətbuatından imtina edilib senzurasız, alternativ fikirlərin yer aldığı müstəqil nəşrlərin fəaliyyətə başlaması, medianın diskussiya məcrasına yönəldilməsi, KİV-cəmiyyət münasibətləri fonunda medianın müstəqil fəaliyyəti üçün müvafiq iqtisadi bazanın yaradılması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Mətbuatı xalqın güzgüsü hesab edən Ulu Öndər fəaliyyəti dövründə müstəqil media orqanlarının, azad sözün, azad fikrin inkişafı üçün hər cür qayğıkeşlik göstərərək dövlətin müstəqil mətbuata maddi və mənəvi dəstəyinin təminatçısı kimi çıxış edib. Təməli Ulu Öndər tərəfindən qoyulan bu siyasət Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilir.

Bu gün dövlət azad sözün, müstəqil mətbuatın inkişafı üçün hər cür dəstək verir. Jurnalistlərin sosial problemlərinin həlli, Medianın İnkişafı Agentliyinin yaradılması kimi konkret əməli tədbirlər bu istiqamətdə dövlətin KİV-ə verdiyi dəstəyin yalnız bir hissəsidir. Ölkəmizdə azad sözə, alternativ fikrə olan bu qayğıkeşlik həm də dövlət başçısının mətbuata olan münasibətinin ifadəsidir.

Prezident İlham Əliyev dəfələrlə ölkədə inkişaf etmiş, peşəkar və müstəqil KİV-in fəaliyyətinin dəstəklənməsinin Azərbaycanın dövlət siyasətinin əsas prinsiplərindən biri olduğunu nitqlərində, mətbuat işçiləri ilə görüşlərində bəyan edib. Həm də təkcə bəyan etməyib, eyni zamanda söz azadlığını, insanların obyektiv informasiya əldə etmək hüququnu, eləcə də kütləvi informasiya vasitələrinin müstəqilliyini təmin etmək məqsədilə ardıcıl tədbirlər görüb.

Baş nazir Əli Əsədovun mayın 13-də imzaladığı qərarla idxalı və satışı əlavə dəyər vergisindən azad edilən kütləvi informasiya vasitələri məhsullarının və kitabların (elektron kitablar istisna olmaqla), habelə dərslik komplektlərinin və həmin malların (məhsulların) istehsalı (nəşri) ilə bağlı rulon və ya vərəqə şəklində kağızın siyahısının təsdiq edilməsini çap mətbuatının, nəşriyyatların işçiləri çoxdan gözləyirdilər. Həmin qərara əsasən, ölkədə kütləvi informasiya məhsullarının, kitabların və dərslik komponentlərinin, eləcə də həmin məhsulların istehsalı və nəşri ilə bağlı kağızın idxalı və satışı əlavə dəyər vergisindən (ƏDV) azad edilib.

Çap məhsulları üçün nəzərdə tutulan kağızın əlavə dəyər vergisindən azad edilməsi mətbuatımızın inkişafına öz müstəsna töhfəsini verməklə yanaşı, çap məhsulları istehsal edən müəssisələrin işində də bir canlanma yaradacaq. Qəbul olunmuş bu qərarın ölkəmizdə elmi və bədii yaradıcılığın inkişafına da müsbət təsir göstərəcəyi şübhəsizdir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

**Hazırda dünyanın üzləşdiyi ən ciddi problemlərdən biri ərzaq çatışmazlığıdır. Mütəxəssislər bunun səbəbi kimi əhalinin sayının sürətlə artması və iqlim dəyişikliyi nəticəsində əkin üçün yararlı torpaq sahələrinin sıradan çıxması ilə əlaqələndirirlər. Digər səbəb isə siyasi və hərbi qarşıdurmalardır.**



# Azərbaycan qlobal ərzaq qıtlığı təhlükəsindən sığortalanmaq üçün tədbirlər görür

Məsələn, Rusiya-Ukrayna savaşı dünyada buğda, arpa və günəbaxan yağının qıtlığını yaradıb. Belə ki, bu iki ölkə dünya bazarında həmin məhsulların əsas ixracatçılarındandır. Müharibədən əvvəl beynəlxalq bazara çıxarılan buğdanın 30, arpanın 32 və günəbaxanın 32 faizini Rusiya ilə Ukrayna ixrac edirdi. Hazırda müharibə nəticəsində logistika imkanların məhdudluğu üzündən Ukrayna bu məhsulları bazara çıxara bilmir. Rusiya isə həmin məhsulların satışına müəyyən məhdudiyyətlər qoyub. Bir sözlə, indiyədək formalaşmış ticarət zənciri qırılıb. Digər tərəfdən də əhali getdikcə çoxalır və ərzağa tələbat artır. Bunun sayəsində dünya bazarında ərzaq məhsullarının qiyməti 35 faiz bahalaşıb.

BMT-nin baş katibi Antoniu Quterreş Rusiya-Ukrayna savaşının dünyada ərzaq çatışmazlığına səbəb olacağını bildirir. A.Quterreş Avstriya kansleri Karl Mehammer və xarici işlər naziri Aleksandr Şallenberglə keçirdiyi görüşdə bununla bağlı demişdir: "Qeyd etməliyəm ki, Ukraynadakı müharibə səbəbindən üzləşdiyimiz dramatik ərzaq təhlükəsizliyi vəziyyətinə görə aclığın dünyanın müxtəlif yerlərində geniş vüsət alması riski məni çox narahat edir".

Son dövrlər dünyada baş verən koronavirus pandemiyası, iqlim dəyişikliyi ilə bağlı yaranan quraqlıq da dünyada daha çox insanın aclıqdan əziyyət çəkməsinə gətirib çıxarır. Həmçinin bu üzdən böyük narahatlıq mövcuddur. BMT-nin hesablamalarına görə, 2022-2023-cü illərdə dünyada aclıqdan əziyyət çəkənlərin sayı əlavə 8-13 milyon nəfər arta bilər. Hazırda dünyada ərzaq qıtlığından əziyyət çəkənlərin sayı isə 300 milyon nəfərdir. Mütəxəssislər bu vəziyyəti İkinci Dünya müharibəsindən sonra ən təhlükəli hədd kimi dəyərləndirirlər.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının hesablamalarına əsasən, bu ilin aprel ayında qlobal ərzaq qiymətləri indeksi 158,5 bənd təşkil edib ki, bu da mart ayı ilə müqayisədə 0,8 bənd aşağıdır. Lakin bu göstərici keçən ilin aprel ayı ilə müqayisədə qiymətlərin 29,8 faiz artdığını göstərir.

FAO bildirir ki, ərzaq qiymətlərindəki azalmanın ən əsas səbəbi bitki yağlarının kəskin ucuzlaşmasıdır. Eyni zamanda taxılın qiymətindəki nisbi azalma da prosesə təsirini göstərib. Aprel ayında şəkərin, ətin və süd məhsullarının qiymətində bahalaşma davam edib.

FAO ekspertləri taxıl məhsullarının ucuzlaşmasının əsas səbəbi kimi Argentina və Braziliyada yığım mövsümünün başlanmasını qeyd edirlər. Bu zaman buğdanın qiymətindəki 0,2 faizlik cüzi bahalaşma ümumi taxıl qiymətlərinə təsir etməyib.

Süd məhsullarına gəlincə, apreldə onlar martla müqayisədə bahalaşıb ki, bu da Qərbi Avropa və Okeaniyada süd istehsalının mövsüm səviyyəsindən aşağı olmasından irəli gəlib.

Ət isə apreldə martdakı rekord artım göstəricisini örtərək daha 2,2 faiz bahalaşıb. Quş əti Ukraynadan ixracda yaranan fasilələr və Şimal yarımkürəsində quş qripi hallarının artması nəticəsində bahalaşıb. Donuz əti marta nisbətən az bahalaşıb. Buna Qərbi Avropada kəsimə verilən heyvan sayının azalması, iri istehsalçıların özlərində tələbatın artması səbəb olub. Braziliyadan ixracın kəskin artımı mal ətinin sürətli bahalaşmasının qarşısını alıb. Çindəki karantin tədbirləri üzündən limanların bağlanması qoyun ətinə tələbatın azalması və onun qiymətinin cüzi də olsa, aşağı düşməsinə gətirib çıxarıb.

FAO-nun hesablamalarına əsasən, hazırda Ukraynada 25 milyon tona yaxın ixraclıq taxıl yığılıb qalıb. "Reuters" qurumun direktor müavini Cozef Şmidhuberə istinadən xəbər yayıb ki, Qara dəniz limanlarının işğalı və mühasirəsi nəticəsində Ukrayna bu məhsulu ixrac edə bilmir: "Bu, hazırda Ukraynada müşahidə etdiyimiz qrotesk vəziyyətdir. Demək olar ki, 25 milyon ton taxıl ixrac oluna bilərdi, lakin infrastrukturun olmaması səbəbindən ölkəni tərk edə bilməyəcək".

Ölkəmiz taxıl ixracını azaltmaq məqsədilə kompleks tədbirlər həyata keçirir. Bu məqsədlə buğda əkən fermerlərə daha çox güzəştlər edilir. Məqsəd fermerləri taxıl əkməyə təşviq etməkdir. Dövlət buğdaya olan tələbatının 70 faizini təmin etmək üçün zəruri tədbirlər görür. Bu səviyyəyə çatmaq üçün işğaldan azad edilən ərazilərdə 100 min hektara yaxın sahədə buğda əkiləcək.

Prezident İlham Əliyev BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının baş direktoru Qu Dongunu mayın 6-da videoformatda qəbul edərkən kənd təsərrüfatının inkişafına və ərzaq təhlükəsizliyinə xüsusi önəm verdiyini bildirərək demişdir: "Azərbaycanda kənd təsərrüfatının inkişafı hökumətimiz üçün prioritetlərdən biridir. Çünki birincisi, hazırda hər bir ölkə üçün, ola bilsin ki, bir neçə il əvvəl olduğundan daha vacib olan ərzaq təhlükəsizliyidir. Bizim üçün ikinci məsələ odur ki, bu, bizim artmaqda olan qeyri-enerji ilə bağlı ixracımızın mühüm hissəsini təşkil edir. Bu ilin üç ayı ərzində Azərbaycanda qeyri-enerji ixracında artım 45 faiz olub. Əlbəttə ki, bu, məşğulluq baxımından əhəmiyyətlidir. Çünki əhalimizin demək olar ki, yarısı kənd yerlərində yaşayır. Ona görə də bu insanlar üçün kənd təsərrüfatı əsas gəlir mənbəyidir. Siz yəqin ki, bizim islahatlarımızdan, hökumətin fermerlərə verdiyi subsidiyalardan, dəstəkdən xəbərdarsınız. Fermerlər hər hansı vergidən, o cümlədən torpaq vergisindən azaddırlar. Həmçinin biz fermerlərə güzəştli, aşağı faizlərlə kreditlər veririk. Bütün bunlar kənd təsərrüfatının sürətli inkişafı üçün imkanlar yaradır. Lakin, əlbəttə ki, biz xüsusilə indi, ərazilər işğaldan azad ediləndən sonra hər şeyi düzgün planlaşdırmalı və müasir texnologiyalar tətbiq etməliyik".

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Avropanın siyasiləşən "Avroviziya"sı

## Bundan sonra qalmaqallı yarışmada iştiraka ehtiyac varmı?

**Son illərdə "Avroviziya" Mahnı Müsabiqəsindəki qalmaqallar bitmək bilmir. 2020-ci ildə pandemiya səbəbindən təxirə salınan yarışma ötən il tamaşaçısız keçirildi. Bu il isə yarışma yenidən ənənəvi qaydada ötən ilin qalib ölkəsi İtaliyanın Turin şəhərində səhnəyə qayıtdı. Azərbaycan hər il olduğu kimi, bu dəfə də finala keçən 25 ölkədən biri oldu. Ancaq İtaliyada keçirilən müsabiqədə qaranlıq məqamlar yaşandı.**

### Avropa Yayım Birliyinin saxtakarlığı

Ümumiyyətlə, son illərdə yarışmaya narazılıq edərək qatılmayan ölkələrin sayı artmaqdadır. Təbii ki, səbəb kimi isə yarışmanın ikili standartlara söykəndiyi və siyasi xarakter daşıması, səsvermənin saxtalaşdırılmasıdır.

Qardaş Türkiyə də səsvermə sistemində ədalətsizlik olduğu üçün yarışmada iştirakdan imtina etdiyini açıqlamışdı. Qeyd edək ki, Türkiyə artıq 2013-cü ildən "Avroviziya" ya qatılmır.

Yarışmanın ilk yarımfinal günündən hansı ölkənin qalib gələcəyi ilə bağlı ictimaiyyət arasında da müzakirələr gedirdi. Qalib ölkənin Ukrayna olacağı düşünülsə də, Azərbaycanın da təqdim etdiyi musiqi ilə ön pillələrdə olacağı müzakirə olunurdu.

Finalda 15-ci çıxış edən Azərbaycana bu il səsvermə zamanı 40 ölkənin 19-dan müxtəlif səslər verildi. Əvvəlki illərdən fərqli olaraq hər ölkənin münsif heyətinin verdiyi xallar ilk olaraq açıqlandı. Azərbaycanın 12 xalı kimə verəcəyini açıqlayacağı zaman isə texniki problem olduğu üçün qoşulmanın mümkün olmadığı bildirilirdi və Azərbaycan adından verilən xallar səhnədə səsləndirildi və ölkəmizin 12 xalı Böyük Britaniyaya verdiyi açıqlandı. Daha sonra Gürcüstan və Rumıniyaya qoşulma zamanı da belə problemin ortaya çıxdığı qeyd olunaraq, xallar yarış təşkilatçıları tətəfindən səsləndirildi.

Səsvermədən dərhal sonra Azərbaycanın əslində 12 xalı Ukraynaya verdiyi, səsvermənin məqsədli şəkildə dəyişdirildiyi ortaya çıxdı. Təbii ki, həm münsif, həm də xalq səsverməsinə görə sonda qalib Ukrayna olsa da, bir ölkənin verdiyi səslərin dəyişdirilməsi nədən xəbər verir? Belə çıxır ki, yarışmaya göndərilən hər bir səs dəyişdirilə, saxtalaşdırılaraq təşkilatçıların istədiyi ölkəyə istədiyi qədər xal verməsi ilə reallaşa bilər.

Finaldan sonra müzakirə olunan yarışma və səsvermə ilə bağlı İctimai Televiziya və Radio Yayımları Şirkəti tərəfindən təşkilatçılara müraciət olunduğu, ölkəmizin elan edəcəyi 12 xalın əslində Ukraynaya verildiyi və bununla bağlı araşdırma aparıldığı bildirildi. Münsif səsverməsindən sonra Azərbaycan ilk onluqda olsa da, xalq səsverməsi nəticəsində 3 alan Azərbaycan 16-cı yerdə qərarlaşdı. Bir ölkənin verdiyi səslərin dəyişdirilməsi, əslində bu məqamda da şübhələr doğurur? Həqiqətənmi verilən xal 3 idi, yoxsa...

Narazılıq və şikayətləri görən "Avroviziya" Beynəlxalq Mahnı Müsabiqəsinin təşkilatçısı Avropa Yayım Birliyi (AYB) finaldan bir gün sonra 6 ölkənin - Azərbaycan, Gürcüstan, Monteneqro, Polşa, Rumıniya və San Marinonun münsiflər heyəti tərəfindən müsabiqədən çıxarıldığını bəyan etdi. Bu ölkələr qaydaları pozmaqda ittiham edildi. Amma təşkilatçılar tərəfindən 6 ölkənin hansı qaydaları pozduğu açıqlanmadı.

### "Texniki problem", yoxsa qərəz?

İctimai Televiziya və Radio Yayımları Şirkətindən verilən məlumata görə, müsabiqə təşkilatçılarına azərbaycanlı münsiflərin səs verdiyi ölkələrin adları göndərilib. Həmin siyahıya əsasən, 12 bal Ukraynaya verilib. Yarışma təşkilatçıları buna cavab olaraq İctimai Televiziya və Radio Yayımları Şirkətinin nümayəndələrindən final şousunun sonunda heç bir səbəb gətirmədən israrla başqa nəticələrin açıqlanmasını istəyiblər. Azərbaycan tərəfindən isə bu istək qətiyyətlə rədd edilib.

Dərhal təşkilatçılara sorğu xarakterli rəsmi məktub göndərilib və canlı yayımda onlardan alınan nəticələrin deyil, Azərbaycanın münsif heyətinin verdiyi səslərin açıqlanacağı, bu məsələnin isə ictimailəşdiriləcəyi bildirilib. Yalnız bundan sonra yarımfinal mərhələsi zamanı 6 ölkənin, o cümlədən Azərbaycanın səsləri ilə bağlı müəyyən "qəribəliyin" olduğu barədə məlumat verilib. Bu "qəribəlik"lə bağlı isə finalın sonuna qədər heç bir məlumat verilməyib, hansısa "sübutlar" indiyə qədər təqdim olunmayıb.

Azərbaycan münsiflərin səsverməsinin nəticələrini elan etməyə tam hazır olmasına baxmayaraq, yarış təşkilatçıları Bakıya bağlanmayıb, ölkəmiz adından öz nəticələrini elan ediblər. Bu proses isə texniki problemlərlə əlaqələndirilib. Halbuki ölkəmizdə səslərin canlı yayımda elan olunması üçün heç bir texniki problem olmayıb və təşkilatçılara İctimai Televiziyanın adından səsləri elan etməyə heç bir hüquq verilməyib.

### Azərbaycanın qərarı nə olacaq?

İctimai Televiziyadan müraciətlə bağlı rəsmi cavab gözləndiyi və ondan asılı olaraq növbəti addımların atılacağı bildirilib.

Bu bir daha göstərir ki, təşkilatçılar iştirakçı ölkənin səsvermə hüququnu əlindən alır, istədikləri vaxt səsləri saxtalaşdırırlar.

Ümumiyyətlə, olanlardan sonra Azərbaycanın "Avroviziya"da iştirak məsələsi geniş müzakirə obyektinə çevrilib. Çoxları yarışmada səslərin ədalətsiz olduğunu, nəticələrin reallığa söykənmədiyini, hətta bəzən yarışmadan əvvəl qalibin hansı ölkə olduğunun bəlli olduğunu bildirirlər.

İctimaiyyət arasında dolaşan fikirlər əsas bir sualı ortaya çıxarır. Ümumiyyətlə, bundan sonra Azərbaycanın "Avroviziya" yarışmasında iştirakına ehtiyac varmı?

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# Dördüncü dozaya ehtiyac varmı?

## Bəzi ölkələrdə bu tətbiq olunsa da, Azərbaycan hələ ki lüzum görmür

**COVID -19 pandemiyasının dünyada yayılma arealı, səbəb olduğu ölüm sayı xeyli azalsa da, tam bitməyib. Düzdür, indi demək olar ki, əksər ölkələr virusa qarşı tətbiq etdikləri mübarizə tədbirlərini yumşaldıb, sərhədlərini açıb, amma koronavirus birdəfəlik yox olmayıb.**

Hazırda koronavirusun "Omikron" və onun alt variantı olan BA.2 və bu alt variantın növbəti növü - BA.2.12.1 dünyada dominantlıq edir. Əgər yeni növə yoluxma aprel ayının əvvəlində 7 faiz idisə, mayın əvvəlində 36 faizə qədər yüksəlib. Hətta mütəxəssislər BA.2 alt variantının "Omikron"dan 50 faiz daha çox və sürətli ötürüldüyünü bildiriblər.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa Regional Ofisinin ötən həftə açıqladığı məlumatda isə Avropada koronavirusdan ölənlərin sayının 2 milyonu, yoluxma hallarının ümumi sayının 218 milyonu ötdüyü bildirilib. Həmçinin bölgədə yeni yoluxma hallarının azaldığı, lakin COVID -19-un peyvənd olunmamış və həssas insanlar üçün ölümcül virus olaraq qaldığı vurğulanıb.

### Çində vəziyyət normallaşır

Dünyada pandemiya ilə bağlı normallaşmanın yaşandığı bu dönəmlərdə isə koronavirusun ilk yarandığı ölkə olan Çində virusa qarşı "sıfır yoluxma" siyasəti adı altında sərt qapanmalara start verilmişdi. Aprel ayından ölkənin 26 milyondan çox əhalisi olan Şanxay şəhərində "Omikron" variantının səbəb olduğu bu vəziyyətin nəzarət altına alınması üçün sərt məhdudiyyətlər həyata keçirilirdi. Artıq şəhərdə iyun ayının əvvəlindən məhdudiyyətlərin aradan qaldırılması planlaşdırılır. Bununla əlaqədar Şanxay merinin müavini Zong Ming şəhərin 16 rayonundan 15-nin karantin zonaları xaricində "sıfır yoluxma" hədəfinə çatdığını bildirib.

Lakin paytaxt Pekində qadağalar davam etdirilir. Bu həftəsonu şəhərin cənub-qərbindəki Fınqtay rayonunda 17 yoluxma halı qeydə alındıqdan sonra bütün əyləncə məkanları, idman zalları və fitnes mərkəzləri qapılarını bağlayıblar.

### Bu doza yaşlıları qoruyur

Pandemiya ilə bağlı tibb elminin gəldiyi birmənalı qənaət virusa qarşı peyvəndlərin əvəzolunmaz vasitə olduğu ilə bağlıdır. Pandemiyanın hazırkı vəziyyəti fonunda isə bir çox ölkələrdə 4-cü doza gücləndirici peyvəndlərin zəruriliyi gündəmə gəlib. Bununla bağlı İngiltərədə aparılan sınaqlara görə, dördüncü doza gücləndirici peyvəndlər xüsusilə 70 yaşdan yuxarı insanlarda koronavirusa qarşı müdafiəni artırır. Böyük Britaniya alimləri qeyd ediblər ki, bu gedişlə payızı da gözləniləndən artıq müsbət nəticə ilə qarşılamaq mümkün ola bilər.

### Ölümlər 78 faiz azalıb

İsraildə aparılan yeni araşdırma 4-cü doza peyvəndin 60-100 yaş arası şəxslərdə COVID ilə əlaqəli ölümlərin 78 faiz azaltmasını üzə çıxarıb. 560 mindən çox insanı əhatə edən tədqiqatın müəllifləri bildiriblər ki, onların araşdırmaları peyvəndin 4-cü dozasının həyatların xilas edilməsində kritik əhəmiyyətini ortaya qoyub.

İsraildəki Clalit Sağlamlıq Xidmətləri Kollecinin, Sapir Universiteti və Ben-Qurion Universitetinin rəhbərlik etdiyi araşdırma zamanı tədqiqatçılar peyvəndin 4-cü dozası üçün uyğun olan 560 mindən çox şəxsin məlumatlarını təhlil ediblər. İştirakçıların orta yaşının 73, cinsinin isə 53 faizinin qadın olduğu müəyyən edilib.

Dörd dəfə peyvənd edilən iştirakçılarda qeydə alınan 92 ölüm hadisəsindən beşi 60-69, 22-si 70-79 və 65-i 80-100 yaş arasında baş verib. Peyvəndin üç dozasını alan iştirakçılar arasında isə 60-69 yaşda 32, 70-79 yaşda 51, 80-100 yaşda 149 ölüm qeydə alınıb.

Tədqiqat 4-cü doza peyvənddən qaynaqlanan ölüm nisbətlərindəki 78 faiz azalmanın, üçüncü doza peyvəndin nəticəsi olaraq "Delta" dalğası zamanı yaşlı əhalidə ölüm nisbətindəki 90 faiz azalmadan da aşağı səviyyədə olduğunu göstərib.

Sağlamlıq Xidmətləri Kollecində sağlamlıq nəticələri üzrə tədqiqatçı Ronen Arbel bildirib ki, tədqiqatın məqsədi İsrailin 60 yaşdan yuxarı olan əhalisinin arasında ikinci gücləndirici dozanın qəbulunu artırmaq və digər ölkələri həssas əhali qruplarında əlavə peyvənd istifadəsini təşviq etməkdir.

### Ölkəmizdə 4-cü dozaya ehtiyac görülmür

Qeyd edək ki, Azərbaycanda bu günə qədər yeni növ koronavirusa qarşı vətəndaşlara 13 milyondan çox vaksin vurulub. Birinci mərhələ üzrə vurulan peyvəndlərin ümumi sayı 5, ikinci mərhələ üzrə 4, üç və daha çox doza vaksinlərin sayı 3 milyondan çoxdur. Pozitiv nəticədən sonra vurulan "buster" doza vaksinlərinin sayı isə 241 mindən artıqdır.

Bu ilin fevralında səhiyyə naziri Teymur Musayev brifinq zamanı bildirmişdi ki, bəzi ölkələrdə artıq koronavirus əleyhinə 4-cü dozanın vurulmasına qərar verilib, lakin Azərbaycanda bu gün üçün belə qərar yoxdur. İnsanlar "buster" dozanı öz istəyi ilə qəbul edirlər. Hazırda 5-ci və 6-cı dozaların vurulmasının əhəmiyyəti barədə elmi araşdırmalar yoxdur: "Bu baxımdan bir qədər səbirli olmaq lazımdır. Nazirliyin tərkibindəki Tibbi Elmi Şurada mütəxəssislər var. Onların iştirakı ilə mütəmadi iclaslar keçirilir, qabaqcıl ölkələrin təcrübəsi təhlil edilir və onlara əsasən ölkədə istənilən vaksinasiya rejimi tətbiq edilir".

Nazir onu da vurğulamışdı ki, hazırda Səhiyyə Nazirliyi tərəfindən COVID-19 əleyhinə 4-cü doza peyvəndin vurulması tövsiyə edilmir.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*











# Birləşmiş Ərəb Əmirliklərinin mərhum rəhbəri Şeyx Xəlifə bin Zayed Al Nəhyanı hakimiyyətdə qardaşı əvəzlədi

**Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) rəhbəri şeyx Xəlifə bin Zayed Al Nəhyan ötən cümə günü 73 yaşında vəfat etdi. Onun ölümü ilə ölkədə 40 günlük milli matəm elan edilib, bu müddət ərzində dövlət bayraqları yarıya endirilib, əyləncə tədbirlərinin keçirilməsi qadağan olunub. Bütün nazirliklər, dövlət qurumları və özəl sektor müəssisələri üç gün ərzində - mayın 14-dən mayın 17- dək bağanıb. Xəlifə bin Zayed Al Nəhyanın vəfatı ilə əlaqədar Bəhreyn, Küveyt, Livan və Omanda da üçgünlük matəm elan edilib.**

### Təvazökar, əliaçıq, ədalətli şeyx

Şeyx Xəlifə təvazökar, əliaçıq, xalqının həyatı ilə maraqlanan insan kimi tanınırdı. BƏƏ xalqı onu ədalətli və qətiyyətli liderlik keyfiyyətlərinə görə çox sevir və hörmət edirdi.

Şeyx Xəlifə 1948-ci ildə o vaxtlar hökmdarın Şərq bölgəsindəki nümayəndəsi olan atası şeyx Zayedin göstərişi ilə Əl-Ayn şəhərinin xurma bağları arasında tikilmiş Əl-Muavayci qalasında anadan olub. O, şeyx Zayed tərəfindən əsası qoyulan Əl-Ayndakı ilk yerli məktəbdə təhsil alıb. İlk dəfə dövlət qulluğuna 1966-cı il sentyabrın 18-də, şeyx Zayed Əbu-Dabi əmirliyinin hökmdarı olduqdan və ölkənin gələcək paytaxtına köçdüyü zaman qədəm qoyub. Gənc şeyx Xəlifə Şərq bölgəsində hökmdarın nümayəndəsi vəzifəsində atasını əvəz edib.

Şeyx Xəlifə atasının yolu ilə gedib və Şərq əyalətində, xüsusilə kənd təsərrüfatının yaxşılaşdırılmasına yönəlmiş böyük inkişaf layihələrini həyata keçirməyə davam edib.

Üç il sonra, 1969-cu il fevralın 1-də o, Əbu-Dabi Əmirliyinin vəliəhdi təyin edilib. Ertəsi gün, Britaniyanın Sandherst Hərbi Akademiyasında təhsil almış şeyx Xəlifə Əbu-Dabi Müdafiə Nazirliyinin rəhbəri olub və bu vəzifədə sonradan BƏƏ-nin müasir silahlı qüvvələrinin əsasına çevrilmiş Əbu-Dabi Müdafiə Qüvvələrinin inkişafına rəhbərlik edib. 1971-ci il iyulun 1-də əmirlik hökumətinin yenidən qurulması çərçivəsində Əbu-Dabinin hökmdarı, müdafiə və maliyyə naziri təyin olunub.

Atası, vahid dövlət və millətin yaradılması istiqamətində çalışarkən, Əbu-Dabinin baş naziri kimi şeyx Xəlifəyə daha böyük məsuliyyət verilib. 1974-cü il dekabrın 23- də o, federal kabinetdə baş nazirin müavini kimi ilk vəzifəsinin icrasına başlayıb. 1976-cı ildə Federal Ali Şuranın yeni millət üçün vahid hərbi qüvvələr yaratmaq qərarından sonra o, BƏƏ Silahlı Qüvvələrinin Ali Baş Komandanının təlim və müasir texnikanın tətbiqinə cavabdeh müavini təyin edilib.

Sonrakı illərdə şeyx Xəlifə bir sıra mühüm vəzifələrdə çalışıb. O, yerli və federal səviyyədə bütün böyük layihələrin həyata keçirilməsinə nəzarət etməklə atasının hökumətinin icraçı rəhbəri olub. Şeyx Xəlifənin rəhbərliyi ilə İcraiyyə Şurası Əbu-Dabinin müasir şəhərə çevrilməsinə səbəb olan yaşayış binalarının, su təchizatı sistemlərinin, yolların və ümumi infrastrukturun tikintisi də daxil olmaqla, paytaxtda geniş inkişaf proqramlarının həyata keçirilməsinə nəzarət edib. Şeyx Xəlifə 1976-cı ildə həm də Əbu-Dabi İnvestisiya Təşkilatının yaradılmasına cavabdeh idi. Hazırda da bu səlahiyyətli orqan gələcək nəsillər üçün sabit gəlir mənbəyini təmin etmək üçün əmirliyin maliyyə investisiyalarını idarə edir.

### 15 milyard dollarlıq sərvət

2004-cü il noyabrın 2-də atası, BƏƏ-nin birinci rəhbəri, dövlətin qurucusu şeyx Zayed bin Sultan Al Nəhyan 86 yaşında vəfat etdi. Bu, həm də onun keçmişdə qazandığı nailiyyətlərlə fəxr edə bildiyi və gələcəyin yolunu özü müəyyən etməyə başladığı an idi.

Noyabrın 3-də BƏƏ Federal Ali Şurası şeyx Xəlifəni atasının varisi seçib. Bir ay sonra o, ölkə rəhbəri kimi ilk Milli Gün münasibətilə etdiyi təsirli nitqində "millətimizin lideri və qurucusu atamızın vəfatı ilə bağlı qəlbimizi dolduran dərin hüzn və kədər hissindən" danışıb.

Əslində, şeyx Xəlifə rəhbər kimi fəaliyyətə başladığı ilk günlərdən ölkə vətəndaşları ilə sıx əlaqə saxlayır, onların etimadını və məhəbbətini qazanırdı. Onlarla görüşmək, ehtiyaclarını və problemlərini həll etmək üçün bütün səylərini əsirgəmirdi. Bu əlaqə bir il sonra, millətin yaranmasının 40-cı ildönümündə "kulunnə Xəlifə" - "hamımız Xəlifəyik" şüarı ilə qeyd olundu.

Şeyx Xəlifə, hər şeydən əvvəl, hakim ailə ilə xalq arasında olan ictimai müqavilənin əhəmiyyətini dərk edir və ona hörmət etmək, inkişaf etdirmək üçün hər zaman yollar tapmağa can atırdı. O, BƏƏ rəhbəri vəzifəsinə gəldikdən sonra Federal Milli Şura üzvlərinə namizədlərin irəli sürülməsi sisteminin işlənib hazırlanması təşəbbüsü ilə çıxış etdi və bu, BƏƏ-də birbaşa seçkilərin qurulması istiqamətində ilk addım kimi qiymətləndirildi.

2020-ci ildə onun hökuməti alkoqollu içkilər qəbul etməyi və nikahdankənar birgə yaşayışı dekriminallaşdırıb. Növbəti ildə əcnəbilərə ölkə vətəndaşlığını almaq hüququ verilib. 2020-ci ilin sentyabrında ABŞ-ın vasitəçiliyi ilə BƏƏ (Bəhreynlə birlikdə) İsraillə münasibətləri normallaşdırmaq üçün "İbrahim razılaşmaları" adlı müqavilə imzalayıb. Bundan əvvəl ərəb ölkələrindən yalnız Misir və İordaniyanın İsraillə diplomatik əlaqələri var idi.

Şeyx Xəlifə 2014-cü ildə insult keçirib. O vaxtdan Əbu-Dabi və BƏƏ-nin faktiki hökmdarı onun ögey qardaşı və BƏƏ-nin qurucusu şeyx Zayed bin Sultan Əl Nəhyanın üçüncü oğlu, Əbu-Dabinin vəliəhdi şeyx Məhəmməd bin Zayed Əl Nəhyandır. Özü isə nadir hallarda ictimaiyyət qarşısına çıxıb.

O, dünyanın ən zəngin monarxlarından biri idi. Amerikanın Business Insider xəbər portalının məlumatına görə, onun şəxsi sərvəti təxminən 15 milyard dollar qiymətləndirilirdi. Bundan əlavə, "Forbes" jurnalının məlumatına görə , o, elan edilmiş aktivləri 830 milyard dollar və neft ehtiyatları 97,8 milyard barel olan suveren fonda nəzarət edirdi.

### Dünyanın ən hündür binası "Bürc Xəlifə" onun adını daşıyır

Şeyx Xəlifə dünyanın müxtəlif ölkələrinin mükafatlarına layiq görülmüşdü. Dubayda 2010-cu ildə istifadəyə verilmiş dünyanın ən hündür binası "Bürc Xəlifə" onun adını daşıyır.

Bütün həyat və fəaliyyəti ilə ölkəsinə hədsiz sədaqət nümunəsi göstərmiş şeyx Xəlifə bin Zayed Al Nəhyan beynəlxalq aləmdə yüksək nüfuz sahibi idi. Onun Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafında və genişlənməsində müstəsna xidmətləri olub.

Ötən şənbə günü Birləşmiş Ərəb Əmirliklərinin yeni rəhbəri seçilib. Bu, Əbu-Dabi əmirliyinin vəliəhdi şeyx Məhəmməd bin Zayed Al Nəhyandır. Qərar yeddi əmirliyin hökmdarlarının daxil olduğu BƏƏ-nin Federal Ali Şurası tərəfindən açıqlanıb. O, ABŞ-da hərbi pilotlar üçün kursları və Sandherstdəki hərbi akademiyanı bitirib, Misirdə təhsil alıb.

Ölkənin baş naziri və Dubayın hökmdarı şeyx Məhəmməd bin Rəşid Al Məktum "Tvitter" hesabında "Bu gün Federal Ali Şura qardaşım şeyx Məhəmməd bin Zayed Al Nəhyanı dövlətin prezidenti seçdi. Biz onu təbrik edirik, ona sadiqlik andı içirik, xalqımız da ona beyət edir" yazıb.

Şeyx Məhəmməd bin Zayed Federal Ali Şuranın üzvlərinin göstərdiyi etimada görə minnətdarlığını bildirib, məsul vəzifədə uğurlar əldə etmək, dövlətə və xalqa xidmətdə Tanrıdan kömək istəyəcəyini bildirib.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*

# Paytaxtda hava əsasən yağmursuz keçəcək

Azərbaycanda mayın 17-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Arabir güclənən şimal-qərb küləyi əsəcək, səhər şimal-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 13-15°, gündüz 20-23° isti, Bakıda gecə 13-15°, gündüz 20-22° isti olacaq. Atmosfer təzyiqi 762 millimetr civə sütunundan 764 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 60-65 faiz təşkil edəcək.

Azərbaycan rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı, gündüz əksər rayonlarda havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Gecə və səhər saatlarında duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 9-14°, gündüz 18-23° isti, dağlarda gecə 1-6°, gündüz 6-10° isti olacağı bildirilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 8-13°, gündüz 21-26° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 3-7°, gündüz 7-12° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 3-7°, gündüz 7-12° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşama doğru bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 8-13°, gündüz 17-22° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 7-12°, gündüz 15-20° isti, dağlarda gecə 1-5°, gündüz 5-10° isti olacağı ehtimalı var.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı, gündüz havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 9-14°, gündüz 18-23° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı, gündüz əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Səhər saatlarında duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 12-14°, gündüz 18-23° isti, dağlarda gecə 9-11°, gündüz 15-17° isti olacağı gözlənilir.

# "Bank Respublika" ASC tərəfindən keçirilən "NeoKartla Qazan" lotereyasının ikinci tirajının qalibləri məlum olub

"Bank Respublika" ASC-nin təşkil etdiyi "NeoKartla Qazan" lotereyasının ikinci tirajının qalibləri məlum oldu. 25 oktyabr 2021-ci il tarixdən 01 may 2022-ci il tarixədək davam edən lotereyanın ikinci tirajı 14 may 2022-ci il tarixdə "Bank Respublika"nın Baş Ofisində (Bakı ş. Xaqani, 21 ünvanında) oynanılıb və 155 qalib müəyyən edilib.

**İkinci tirajda qalib gələn şəxslər aşağıdakı hədiyyələri qazanıblar:**

- 2 (iki) nəfər qalib, hər biri Samsung Galaxy S21 (SM-G991);
- 2 (iki) nəfər qalib, hər biri Samsung Galaxy S20 FE (SM-G780) Blue;
- 50 (əlli) nəfər qalib, hər biri 100 AZN;
- 100 (yüz) nəfər qalib, hər biri 50 AZN;
- 1 (bir) nəfər qalib, Toyota RAV4 2.5 Hybrid avtomobili

**Qaliblərin siyahısı:**

| № | Kart nömrəsi | Müştəri kodu (CİF) | Qazanılan hədiyyə |
|---|---|---|---|
| 1 | 547453******0345 | 1453487 | Samsung Galaxy S21 (SM-G991) |
| 2 | 547453******2717 | 1542722 | Samsung Galaxy S21 (SM-G991) |
| 3 | 523522******0104 | 1313613 | Samsung Galaxy S20 FE (SM-G780) Blue |
| 4 | 523522******9775 | 1620405 | Samsung Galaxy S20 FE (SM-G780) Blue |
| 5 | 547453******0932 | 1550839 | 100 AZN Balans |
| 6 | 547453******0528 | 1154063 | 100 AZN Balans |
| 7 | 523522******7740 | 1079750 | 100 AZN Balans |
| 8 | 523522******9676 | 1552565 | 100 AZN Balans |
| 9 | 547453******7316 | 1289412 | 100 AZN Balans |
| 10 | 523522******7560 | 1494452 | 100 AZN Balans |
| 11 | 523522******1925 | 1289021 | 100 AZN Balans |
| 12 | 547453******7110 | 1340855 | 100 AZN Balans |
| 13 | 547453******6868 | 1756476 | 100 AZN Balans |
| 14 | 547453******8302 | 1687576 | 100 AZN Balans |
| 15 | 547453******2390 | 1395437 | 100 AZN Balans |
| 16 | 547453******3663 | 1248081 | 100 AZN Balans |
| 17 | 547453******1537 | 1113606 | 100 AZN Balans |
| 18 | 523522******2401 | 1034474 | 100 AZN Balans |
| 19 | 547453******0497 | 1795832 | 100 AZN Balans |
| 20 | 547453******6781 | 1505791 | 100 AZN Balans |
| 21 | 547453******5781 | 1085281 | 100 AZN Balans |
| 22 | 547453******9449 | 1059907 | 100 AZN Balans |
| 23 | 547453******2235 | 1510765 | 100 AZN Balans |
| 24 | 547453******2883 | 1508820 | 100 AZN Balans |
| 25 | 547453******4629 | 1520046 | 100 AZN Balans |
| 26 | 547453******5250 | 1309528 | 100 AZN Balans |
| 27 | 547453******1254 | 1257539 | 100 AZN Balans |
| 28 | 547453******4762 | 1073754 | 100 AZN Balans |
| 29 | 523522******0220 | 1064830 | 100 AZN Balans |
| 30 | 523522******5111 | 1347318 | 100 AZN Balans |
| 31 | 523522******8438 | 1606437 | 100 AZN Balans |
| 32 | 547453******8548 | 1273423 | 100 AZN Balans |
| 33 | 547453******1073 | 1461773 | 100 AZN Balans |
| 34 | 547453******5816 | 1795459 | 100 AZN Balans |
| 35 | 547453******5988 | 1189220 | 100 AZN Balans |
| 36 | 523522******1208 | 1329052 | 100 AZN Balans |
| 37 | 547453******0439 | 1796469 | 100 AZN Balans |
| 38 | 547453******2507 | 1093322 | 100 AZN Balans |
| 39 | 523522******6035 | 1719211 | 100 AZN Balans |
| 40 | 523522******6590 | 1084000 | 100 AZN Balans |
| 41 | 547453******6309 | 1548107 | 100 AZN Balans |
| 42 | 523522******1888 | 1310937 | 100 AZN Balans |
| 43 | 547453******2582 | 1109668 | 100 AZN Balans |
| 44 | 547453******2638 | 1055529 | 100 AZN Balans |
| 45 | 523522******2031 | 1787540 | 100 AZN Balans |
| 46 | 547453******9273 | 1307525 | 100 AZN Balans |
| 47 | 523522******4289 | 1943385 | 100 AZN Balans |
| 48 | 547453******6402 | 1907142 | 100 AZN Balans |
| 49 | 547453******5248 | 1026015 | 100 AZN Balans |
| 50 | 547453******8379 | 1386891 | 100 AZN Balans |
| 51 | 523522******6279 | 1545005 | 100 AZN Balans |
| 52 | 547453******9842 | 1451014 | 100 AZN Balans |
| 53 | 523522******0633 | 1283857 | 100 AZN Balans |
| 54 | 547453******5699 | 1247999 | 100 AZN Balans |
| 55 | 547453******2794 | 1579977 | 50 AZN Balans |
| 56 | 547453******1111 | 1738570 | 50 AZN Balans |
| 57 | 523522******1914 | 1939154 | 50 AZN Balans |
| 58 | 547453******8472 | 1527629 | 50 AZN Balans |
| 59 | 547453******4458 | 1093791 | 50 AZN Balans |
| 60 | 523522******0990 | 1560030 | 50 AZN Balans |
| 61 | 547453******3221 | 1068725 | 50 AZN Balans |
| 62 | 547453******6012 | 1724532 | 50 AZN Balans |
| 63 | 547453******0722 | 1951461 | 50 AZN Balans |
| 64 | 523522******1206 | 1346542 | 50 AZN Balans |
| 65 | 547453******3973 | 1062613 | 50 AZN Balans |
| 66 | 523522******0051 | 1707058 | 50 AZN Balans |
| 67 | 547453******4853 | 1054867 | 50 AZN Balans |
| 68 | 523522******1548 | 1048255 | 50 AZN Balans |
| 69 | 547453******1026 | 1268618 | 50 AZN Balans |
| 70 | 547453******0463 | 1563591 | 50 AZN Balans |
| 71 | 547453******9948 | 1434081 | 50 AZN Balans |
| 72 | 547453******2288 | 1562908 | 50 AZN Balans |
| 73 | 547453******0000 | 1517531 | 50 AZN Balans |
| 74 | 523522******5383 | 1275675 | 50 AZN Balans |
| 75 | 523522******3403 | 1346918 | 50 AZN Balans |
| 76 | 547453******5080 | 1380025 | 50 AZN Balans |
| 77 | 547453******0905 | 1042644 | 50 AZN Balans |
| 78 | 523522******8742 | 1350430 | 50 AZN Balans |
| 79 | 523522******0032 | 1697825 | 50 AZN Balans |
| 80 | 547453******0784 | 1099549 | 50 AZN Balans |
| 81 | 547453******2873 | 1058061 | 50 AZN Balans |
| 82 | 547453******2663 | 1608014 | 50 AZN Balans |
| 83 | 547453******6230 | 1024142 | 50 AZN Balans |
| 84 | 547453******1366 | 1516719 | 50 AZN Balans |
| 85 | 523522******1755 | 1277670 | 50 AZN Balans |
| 86 | 547453******3075 | 1908363 | 50 AZN Balans |
| 87 | 523522******2171 | 1320253 | 50 AZN Balans |
| 88 | 547453******0588 | 1004290 | 50 AZN Balans |
| 89 | 547453******8389 | 1479121 | 50 AZN Balans |
| 90 | 547453******5523 | 1002570 | 50 AZN Balans |
| 91 | 523522******9781 | 1348555 | 50 AZN Balans |
| 92 | 523522******6941 | 1409868 | 50 AZN Balans |
| 93 | 547453******8223 | 1553687 | 50 AZN Balans |
| 94 | 523522******8509 | 1341288 | 50 AZN Balans |
| 95 | 547453******1289 | 1059784 | 50 AZN Balans |
| 96 | 547453******3684 | 1917261 | 50 AZN Balans |
| 97 | 547453******4252 | 1009942 | 50 AZN Balans |
| 98 | 547453******1678 | 1313404 | 50 AZN Balans |
| 99 | 547453******3814 | 1690704 | 50 AZN Balans |
| 100 | 547453******5599 | 1708826 | 50 AZN Balans |
| 101 | 547453******9866 | 1207373 | 50 AZN Balans |
| 102 | 523522******9496 | 1797596 | 50 AZN Balans |
| 103 | 547453******9349 | 1051849 | 50 AZN Balans |
| 104 | 547453******0229 | 1034232 | 50 AZN Balans |
| 105 | 523522******8907 | 1096919 | 50 AZN Balans |
| 106 | 523522******5321 | 1914406 | 50 AZN Balans |
| 107 | 547453******9958 | 1621647 | 50 AZN Balans |
| 108 | 547453******7189 | 1041352 | 50 AZN Balans |
| 109 | 547453******6573 | 1712717 | 50 AZN Balans |
| 110 | 547453******1851 | 1552454 | 50 AZN Balans |
| 111 | 547453******4230 | 1130732 | 50 AZN Balans |
| 112 | 547453******5781 | 1085281 | 50 AZN Balans |
| 113 | 547453******0140 | 1532085 | 50 AZN Balans |
| 114 | 547453******5129 | 1524694 | 50 AZN Balans |
| 115 | 547453******4644 | 1017671 | 50 AZN Balans |
| 116 | 547453******0293 | 1552091 | 50 AZN Balans |
| 117 | 523522******8482 | 1283520 | 50 AZN Balans |
| 118 | 547453******1876 | 1853869 | 50 AZN Balans |
| 119 | 547453******4500 | 1356486 | 50 AZN Balans |
| 120 | 547453******3528 | 1243058 | 50 AZN Balans |
| 121 | 547453******0150 | 1945389 | 50 AZN Balans |
| 122 | 547453******3231 | 1675256 | 50 AZN Balans |
| 123 | 523522******8797 | 1293998 | 50 AZN Balans |
| 124 | 523522******6477 | 1364644 | 50 AZN Balans |
| 125 | 547453******6267 | 1035005 | 50 AZN Balans |
| 126 | 547453******3178 | 1665590 | 50 AZN Balans |
| 127 | 547453******8252 | 1042209 | 50 AZN Balans |
| 128 | 523522******3897 | 1379625 | 50 AZN Balans |
| 129 | 547453******0813 | 1008915 | 50 AZN Balans |
| 130 | 547453******6577 | 1104187 | 50 AZN Balans |
| 131 | 523522******2543 | 1196260 | 50 AZN Balans |
| 132 | 547453******9632 | 1087999 | 50 AZN Balans |
| 133 | 523522******6278 | 1844092 | 50 AZN Balans |
| 134 | 547453******2182 | 1952807 | 50 AZN Balans |
| 135 | 523522******8553 | 1103639 | 50 AZN Balans |
| 136 | 547453******0861 | 1907134 | 50 AZN Balans |
| 137 | 547453******2419 | 1262579 | 50 AZN Balans |
| 138 | 547453******6243 | 1322629 | 50 AZN Balans |
| 139 | 547453******6352 | 1087301 | 50 AZN Balans |
| 140 | 523522******7787 | 1332896 | 50 AZN Balans |
| 141 | 547453******5134 | 1309474 | 50 AZN Balans |
| 142 | 547453******7588 | 1577887 | 50 AZN Balans |
| 143 | 547453******6923 | 1194767 | 50 AZN Balans |
| 144 | 547453******6607 | 1761185 | 50 AZN Balans |
| 145 | 547453******4604 | 1200704 | 50 AZN Balans |
| 146 | 523522******3320 | 1323915 | 50 AZN Balans |
| 147 | 523522******9198 | 1674582 | 50 AZN Balans |
| 148 | 547453******5831 | 1105232 | 50 AZN Balans |
| 149 | 547453******3385 | 1293365 | 50 AZN Balans |
| 150 | 547453******9105 | 1688793 | 50 AZN Balans |
| 151 | 523522******7606 | 1289072 | 50 AZN Balans |
| 152 | 523522******9001 | 1539018 | 50 AZN Balans |
| 153 | 547453******3164 | 1358561 | 50 AZN Balans |
| 154 | 547453******2883 | 1088622 | 50 AZN Balans |
| 155 | 547453******9652 | 1085995 | Toyota RAV4 2.5 Hybrid avtomobili |

# Zəngilanın Ağalı kəndinə və tikilməkdə olan beynəlxalq hava limanına 35 kV-luq xətt çəkilir

**Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına uyğun olaraq, işğaldan azad edilmiş digər ərazilərdə olduğu kimi, Zəngilan rayonu ərazisində də "Azərişıq" ASC tərəfindən genişmiqyaslı işlər aparılır.**

Rayonun Ağalı kəndində həyata keçirilən "ağıllı kənd" layihəsi çərçivəsində kəndin elektrik enerjisi ilə təminatı üçün 35 kV-luq müasir hava elektrik verilişi xətti çəkilir.

Həyata keçirilən digər böyük layihə isə Zəngilanda tikintisi davam edən beynəlxalq hava limanının elektrik enerjisi ilə təchiz olunmasıdır. Hava limanına ikidövrəli, 35 kV-luq, tam izolyasiyalı elektrik xətti çəkilir.

Yeni tip izolyasiya olunmuş 35 kV-luq xətlərin mühafizə zonası (3-6 metr) mövcud xətlərə (30-40 metr) nisbətən 6-10 dəfəyə qədər azdır. 35 kV-luq mövcud naqillərdə texniki itkilər 9-12 faiz olduğu halda, müasir tipli izolyasiya olunmuş kabellərdə 3,5-4 faiz təşkil edir. Şəbəkələrin saxlanma xərcləri 100 faizdən 30 faizə, illik mal-material sərfi 100 faizdən 25 faizə endirilir, xidmət müddəti 2 dəfə azalır. İzolyasiya olunmuş kabellərdə qəza açılmalarının sayı və müddəti isə mövcud naqil xətlərilə müqayisədə 60 faizədək azdır.

Planlı açılmalar (şəbəkələrə xidmət, təmir, profilaktik baxış və s.) müddəti mövcud xətlərə nisbətən 75 faiz azdır. Yüksəkgərginlikli xətlərin bilavasitə altında və yaxınlığında yerləşən yaşayış və əkin sahələrinin, ümumilikdə sakinlərin yaşayış və fəaliyyət təhlükəsizliyi dəfələrlə artır, təbiət hadisələrinin elektrik verilişi xətlərinə təsiri aradan qaldırılır.

Yeni tip izolyasiya olunmuş 35 kV-luq xətlərin istifadəsi ölkənin enerji sisteminin dayanıqlıq, etibarlıq və səmərəlilik göstəricilərini beynəlxalq standartlara yaxınlaşdırmağa imkan verir. Eyni zamanda bu növ kabel xətlərinin istənilən mühitdə - yeraltı, sualtı və hava ilə çəkilişi mümkünlüyü işğaldan azad edilmiş ərazilərdə qurulan 35/0,4 kV-luq innovativ paylayıcı şəbəkələrin istismarını asanlaşdırmaqla yanaşı, dayanıqlı işini də tam təmin edəcəkdir.

# *Müdafiə Nazirliyi:* "İstifadəyə yararsız döyüş sursatlarının Seyfəli poliqonunda utilizasiyası davam etdirilir"

Azərbaycan Ordusunun bölmələri tərəfindən istismar müddəti başa çatmış və istifadəyə yararsız olan döyüş sursatlarının təhlükəsizlik tədbirlərinə əməl olunmaqla planlı şəkildə utilizasiyası davam etdirilir.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, döyüş sursatlarının utilizasiya prosesi mayın 17-dən 21-dək Seyfəli poliqonunda həyata keçiriləcək.

Aparılan partlayış işləri ilə əlaqədar ictimaiyyətə mütəmadi məlumat veriləcək.


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin struktur idarələrinə tələb olunan yanacaq, yağ və su sayğaclarının təmiri, kalibrlənməsi və möhürlənməsi xidmətlərinin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2022-ci il mayın 25-i saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.



## B İ L D İ R İ Ş

### Sığorta sahəsində verilmiş lisenziyalar barədə

"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 57.6-cı maddəsinə əsasən Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən "Naxçıvansığorta" Açıq Səhmdar Cəmiyyətinə sığorta fəaliyyətini həyata keçirməyə icazə verən 13 may 2022-ci il tarixli, SF-0004 nömrəli müddətsiz lisenziya verilmişdir.



## B İ L D İ R İ Ş

Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən Təhsil Nazirliyinin birbaşa tabeliyində olan təhsil müəssisələrində dövlət təminatında olan təhsilalanların 2022-ci ilin may-dekabr ayları ərzində yeməklə təchizatının satın alınması məqsədilə keçirilən tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun 11.1. maddəsinə əsasən, tenderdə iştirak etmək üçün tender təklifi vermiş iddiaçıların sayı üçdən az olduğu üçün ləğv edilib.

*Tender komissiyası*



## "Qaradağ Maşınqayırma" ASC-nin səhmdarlarının nəzərinə

Sizi 30 iyun 2022-ci il saat 11:00-da "Qaradağ Maşınqayırma" ASC-nin səhmdarlarının ümumi yığıncağına dəvət edirik.

Yığıncaq cəmiyyətin inzibati binasında keçiriləcək. Yığıncağın gündəliyi aşağıdakı məsələlərdən ibarətdir.

Yığıncağın aşağıdakı gündəliyi təsdiq edilsin:

1. 2019-2020-2021-ci illərin hesabat məruzəsi;
2. Qarşıda duran cari məsələlər.

Ünvan: Bakı şəhəri, Lökbatan qəsəbəsi, Neftçilər, 13.

*Müdiriyyət*



## ALLAH RƏHMƏT ELƏSİN!

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə Azərbaycandakı Dağ Yəhudiləri icmasının sabiq rəhbəri

**SEMYON BORİSOVİÇ İXİLOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Ali Məhkəmənin hakimi Mehparə Əhmədovaya anası

**TAMARA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.



BAŞ REDAKTOR

Bəxtiyar SADIQOV

Ünvan



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*

*e-mail:*

secretary@azerbaijan-news.az

az.reklam@mail.ru

azerbaijan-news@mail.ru

www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,

Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,

Məsul katib - 539-43-23,

Məsul katib müavinləri - 539-44-91,

Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,

İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,

Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68

Humanitar siyasət şöbəsi - 538-56-60

İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,

Fotoillüstrasiya şöbəsi - 538-84-73,

Kompüter mərkəzi - 538-20-87,

Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5951

Sifariş 1367

Qiyməti 40 qəpik